AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

Azərbaycanda kağız pul nişanları və qiymətli kağızlar

(Milli Azərbaycan Tarixi Muzeyinin Köməkçi tarixi fənn materiallari fondunun bonistika kolleksiyası əsasında)

Kitab-albom

Bakı – 2013

Elmi redaktor: *akademik* ***Nailə Vəlixanlı***

Mətn: ***Sənubər Qasımova***
tarix üzrə fəlsəfə doktoru

Rövşən Əhmədov

Azərbaycanda kağız pul nişanları və qiymətli kağızlar.
Bakı. "Ziya". 2013. 96 s.

Kitab-albomda Milli Azərbaycan Tarixi Muzeyinin Köməkçi Tarixi Fənn Materialları Fondunun Bonistika bölməsində saxlanılan, Azərbaycanda dövriyyədə olmuş və bu gün də işlədilən kağız pullar, səhmlər, istiqrazlar, və digər qiymətli kağızlar təqdim olunur.

İSBN

Giriş

Oxucuya təqdim olunan bu kitab-albom Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) Köməkçi Tarixi Fənn Materialları Fondunun (KTFMF) Bonistika bölməsinin materialları əsasında hazırlanmışdır.

1920-ci ildə yeni yaradılmış Azərbaycan SSR Dövlət Muzeyinin numizmatika fondunun müdiri, professor Yevgeni Paxomov tərəfindən əsası qoyulan, 1952-ci ildən onun aspirantı və yetirməsi olmuş Əli Rəcəbliyə həvalə olunan və bu müddət ərzində sayı 150 mini ötən sikkə və digər maddi irsimizin bir hissəsi, o cümlədən bonistika (2316 material, 10 000 dublet kağız pul və qiymətli kağızlar), filateliya (15 000 ədəd marka), sfragistika və qliptika (336 ədəd), şəxsi təltiflər (915 ədəd), faleristika (1270 medal, nişan və s.) kolleksiyaları muzeyin Elmi Şurasının qərarı ilə 1998-ci ildə təsis olunmuş Köməkçi Tarixi Fənn Materialları Fonduna təhvil verilmişdir. Həmin fondun bonistika (frans. “bonistigue” – “əlverişli”) bölməsində Cənubi Qafqaz, Rusiya İmperiyası, Sovet Sosialist Respublikaları İttifaqı, Şərq və Qərb ölkələrinin kağız pul nişanları və qiymətli kağızlar mühafizə olunur.

Bonistika köməkçi tarixi fənn olaraq funksional mahiyyəti baxımından numizmatika - sikkələr haqqında elm ilə bağlı olub, minillər ərzində davam edən monetar pul dövriyyəsindən sonra, XIX yüzilin 90-cı illərində dünyanın aparıcı dövlətlərinin (ABŞ, İngiltərə, Rusiya və b.) qərarı ilə təsis olunan və qızıl valyuta təminatı əsasında buraxılan kağız pul - əsginaz sistemləri tarixini, eləcə də dövlət və çeşidli maliyyə orqanları tərəfindən buraxılan, lakin dövriyyədən çıxmış bonların, qiymətli kağız və kağız pulların - istiqraz, səhm vərəqələri, veksel, barat, çek, kupon və digər maliyyə-bank sənədlərinin tarixini tədqiq edir.

Dövlətçiliyin əsas atributlarından biri olan, bu və ya digər dövlətin pul təsərrüfatında iştirak edən kağız pul nişanlarının nəşri ali hakimiyyət orqanları, ya da onları təmsil edən milli banklar tərəfindən həyata keçirilir.

Kağız pul nişanları dövlətin daxili iqtisadi potensialının, beynəlxalq aləmdə siyasi nüfuzunun önəmli göstəricisi olmaqla ölkənin həyatında baş verən iqtisadi-sosial prosesləri də əks etdirir, bədii, estetik və qrafik tərtibatı baxımından da xüsusi

maraq doğurur.

Müstəqil dövlətin ən vacib rəmzlərindən biri olan kağız pul həmin dövlətin tarixi, siyasi, iqtisadi vəziyyətini səciyyələndirən amillərdən biridir.

Keçmiş SSRİ-də "Azərbaycanda müstəqil kağız pul dövriyyəsi" mövzusu demək olar işlənilməmiş, ümumiyyətlə pulların emissiyası və dövlətçilik rəmzləri baxımından bu mövzu açıqlanmamışdır. Uzun illər zamanın kölgəsində qalan Azərbaycan Cumhuriyyətinin 1918-1920-ci illər tarixi kimi, onun müstəqil kağız pul dövriyyəsi tarixi də totalitar sovet ideologiyasının tələbatına uyğun olaraq tədqiq olunmamışdır.

Azərbaycan kağız pulları ilk dəfə SSRİ-də, 1927-ci ildə çap olunan F.Q.Çuçinin "Rusiya, RSFSR, SSRİ, əyalətlər və yeni ərazilərin pul vahidləri və bonları kitab-albomunda" çox səthi olaraq qeyd edilmişdir. Uzun illər fasilədən sonra Kiyev şəhərində, 1995-ci ildə çap olunan P.F.Ryabçenkonun "Rusiya SSRİ, MDB ölkələrinin kağız pul vahidləri və bonlarının tam kitab-albomunda" xronoloji ardıcıllıq nəzərə alınmaqla, 1918-1923-cü illərin emissiyaları ətraflı verilmişdir. Lakin bu kitab-albomda kağız pulların adı, dövriyyəyə buraxılma tarixi və dəyərindən savayı başqa məlumatlar daxil edilməmişdir.

Bununla yanaşı son dövrdə 2000-ci ildə dərc olunmuş Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlının "Azərbaycanda dövlətçilik və onun rəmzləri" kitab-albomunda Bakı Şəhər İdarəsi, Bakı Xalq Komissarları Sovetinin və Azərbaycan İctimai Şura Cümhuriyyətinin kağız pul dövriyyəsi haqqında məlumatlar verilmişdir.

Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor Ə.M.Rəcəblinin 2012-ci ildə dərc olunmuş "Azərbaycan sikkələri" kitab-albomunda Azərbaycanda kağız pul dövriyyəsinin tarixinə geniş baxış keçirilmiş, Milli Azərbaycan Tarixi Muzeyinin zəngin kağız pul kolleksiyasından nümunələr göstərilmiş, Azərbaycan kağız pul dövriyyəsinin tarixi bu günə qədər əhatə edilmişdir.

Təqdim olunan kitab-albom Azərbaycanda dövriyyədə olmuş kağız pul nişanları və qiymətli kağızlar kolleksiyasının təsviri ilə başlayır və Azərbaycanın Rusiya İmperiyası tərkibində ümumdövlət kağız pul emissiyalarına həsr olunur.

1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri nəticəsində Şimali Azərbaycan ümumrusiya pul dövriyyəsinə daxil edildi. Kitab-albomun ilk bölməsində muzeyin fondunda qorunan Rusiya Imperiyası assiqnasiyaları, dövlət kredit biletləri, markalar, xəzinədarlığın mübadilə nişanları, Müvəqqəti Hökumətin pul buraxılışı, Dövlət Xəzinədarlığı biletləri, "Azadlıq istiqrazı", xarici və milli neft şirkətlərinin səhmləri, dövlət istiqrazları və paylar toplanılmışdır. Belə qiymətli kağızlardan XIX əsrin II yarısında Azərbaycanda, əsasən də Bakı və Abşeron yarımadasında neft sənayesi sahəsinin inkişafı üçün istifadə edilmişdir.

"1859-1917-ci illər. Rusiya İmperiyası qiymətli kağızlarının buraxılışları"na həsr olunmuş hissədə Dövlət fasiləsiz gəlir bileti (1859-cu il), Bakı şəhərinin 1895-ci il istiqrazları, Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankının Bakı şöbəsi-

nin, Kür- Xəzər Gəmiçilik Səhmdar Cəmiyətinin, Nobel qardaşları şirkətinin, “Xəzər yoldaşlığı” Səhmdar Cəmiyyətinin, Binəqədi Neft-sənaye və Ticarət Cəmiyyətinin səhmləri öz əksini tapmışdır.

Sonrakı bölmədə Azərbaycanda keçid dövrünün yeni mərhələsinə diqqət yetirilərək, kağız pul emissiyalarının Birinci Dünya Müharibəsi dövründə baş verən misli görünməmiş inflyasiyası və 1917-ci il inqilablarından sonra ayrı-ayrı siyasi və təsərrüfat qurumları tərəfindən müxtəlif regionlarda, o cümlədən, Şimali Azərbaycanda, 1918-ci ilin yanvarında - Bakı Şəhər İdarəsi tərəfindən buraxılan kağız pul nişanları təqdim olunmuşdur.

Fondun kolleksiyasında maraq doğuran və nadir hesab edilən eskizlərdən biri də 1918-ci ilin “20 manat” kağız pul nişanının həyata keçirilməmiş layihəsidir. Həmil ilin fondda saxlanılan birüzlü və ikiüzlü kağız pul nişanları layihələrinin bir hissəsi də kitab-albomda təqdim olumuşdur. 1918-ci ildə Zaqafqaziya Komissarlığı və Bakı Şəhər Təsərrüfatı Şurasının buraxdığı kağız pullar, 1919-cu ildə separatist Muğan Respublikasının istiqraz vərəqələri də kitab-albomda yerləşdirilmişdir.

Azərbaycanda pul dövriyyəsinin çox maraqlı səhifələrindən biri də 1918-ci ildə Gəncə şəhərində yerləşən Azərbaycan hökumətinin xahişi ilə Türkiyə “Qırmızı Ay-para Cəmiyyətinin” 1 və 3 rubl dəyərində tədavülə buraxdığı çox nadir lotoreya biletləridir.

Sonrakı hissə Azərbaycan ərazisində müstəqil kağız pul emissiyalarına həsr edilmişdir. Burada təqdim olunan və Azərbaycan Cumhuriyyətində 1919-1920-ci illərdə işlədilən 10, 25, 50, 100, 250, 500 manatlıq (yunan sözü olan “moneta” Roma ilahəsi Yunona Moneta ilə əlaqələndirilir, Azərbaycan dilində bu söz “manat” şəklində təzahür etmişdir) pul əsginazlarında nominal iki dildə - Azərbaycan və rus dillərində qeyd edilir, 500 manatlıq əsginazda isə həm də əlavə olaraq fransız dilində də təqdim olunurdu. Belə çap üslubu Azərbaycan Respublikasının, həm də onun şəxsi valyutasının həmin dövrdə yalnız Antanta dövlətləri tərəfindən deyil, beynəlxalq səviyyədə tanıdılması məqsədilə tətbiq olunmuşdu. Manatın ingilis funt sterlinqinə nisbəti 20:1 təşkil edirdi. Burada həmçinin Azərbaycan İçtimai Şura Cumhuriyyətində (Sovet Sosialist Respublikasında) 1920-1923-cü illər buraxılışları, 1921-1922-ci illərin qiymətli kağız və kağız pul əvəzediciləri, 1923-1924-cü illərdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının kağız pul emissiyaları təqdim olunmuşdur.

Növbəti bölmədə Azərbaycanın Sovet Sosialist Respublikaları İttifaqının tərkibində ümumdövlət kağız pul emissiyaları ətraflı araşdırılmışdır.

Kitab-albomun son səhifələri Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra xronoloji ardıcıllıqla bütün emissiyalarına həsr edilmişdir.

Təqdim olunan kitab-albom Azərbaycanın pul tarixi ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulmuşdur.

Şimali Azərbaycanın Rusiya İmperiyası tərkibində ümumdövlət kağız pul emissiyaları

Azərbaycanın 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinə əsasən Rusiya imperiyasının tərkibində olduğu müddətdə onun ərazisində Rusiya pul vahidləri dövr etmişdir.

Daima metal (qızıl, gümüş və mis) sikkələrə öyrəşən əhali kağız pul vahidlərinin dövriyyəsini inamsızlıqla qarşılayaraq, gümüş və mis sikkələrə daha çox üstünlük verirdi. İqtisadiyyatın inkişafı və aparılan islahatlar, dövriyyədə olan kağız pulların qızıl təminatı əhalinin kağız pullara olan etibarını artırdı. 1913-cü ilə kimi, yəni I Dünya müharibəsi başlanana qədər, Rusiyada dövriyyədə olan kağız rubl dünya miqyasında önəmli və sabit valyuta sayılırdı. I Dünya müharibəsi və onun nəticəsi olaraq iqtisadi böhranlar və inqilabi hərəkat - 1917-ci ilin fevral, sonra da oktyabr hadisələri imperiyanın süqutu və rus rublunun sonu ilə nəticələndi.

XIX əsrin ikinci yarısında Azərbaycanda, əsasən də Bakıda və Abşeron yarımadasında neft hasilatının artması ilə əlaqədar olaraq, neft sənayesinin inkişafı yeni neft şirkətlərinin açılmasına, neft emalı zavodlarının tikilməsinə və iqtisadiyyatın yüksəlişinə gətirib çıxartdı. Bu durumda, iqtisadiyyatın dinamik inkişafı, yeni layihələrin və səmərəli təkliflərin maliyyələşdirilməsi üçün yeni bankların açılması zərurəti meydana gəldi. Bankların yaranması və inkişafı öz növbəsində sənayenin və energetikanın inkişafına vacib olan yatırımların verilməsini təmin etdi.Yüksək gəlirlə işləyən xarici və milli neft şirkətləri öz dövriyyələrini artırmaq məqsədilə qiymətli kağızların emissiyasına başladılar.

Çox qısa bir zamanda qiymətli kağızlar (səhmlər, dövlət istiqrazları, paylar) birjası yaradılaraq, onların dövriyyəsi tənzim edildi. Yüksək dividentlər hesabına iri investisiyaları iqtisadiyyata cəlb edən, neft və neft məhsullarını emal edən şirkətlər öz növbəsində yeni bankların açılmasına və mərkəzi Dövlət banklarının, demək olar ki, hamısının Bakıda filialının yaradılmasına səbəb oldular.

Azərbaycanda dövriyyədə olmuş ilk kağız pul emissiyaları

Rusiya İmperiyası Assiqnasiya Bankının Dövlət assiqnasiyalarının buraxılışı, 1818-1843-cü illər

1. İnv. № 1197. Dövlət assiqnasiyası, 25 rubl, 1808 il. Üz və arxa tərəfi, ölçüsü: 17,5 x 13 sm

2. İnv. № 1199. Dövlət assiqnasiyası, 25 rubl, 1818 il. Üz və arxa tərəfi, ölçüsü: 17,5 x 13 sm

Rusiya İmperiyası Dövlət bankının Dövlət kredit biletləri buraxılışı, 1843-1865-ci illər

3. İnv. № 3. Dövlət kredit bileti, 5 rubl, 1863 il. Üz və arxa tərəfi, ölçüsü: 17 x 10,8 sm

Rusiya İmperiyası Dövlət bankının Dövlət kredit biletləri buraxılışı, 1866-1880-ci illər

4. İnv. № 4. Dövlət kredit bileti, 5 rubl, 1872 il. Üz və arxa tərəfi, ölçüsü: 9 x 16,3 sm

Rusiya imperiyası Dövlət bankının Dövlət kredit biletləri buraxılışı, 1882-1886-cı illər

5. İnv. № 2. Dövlət kredit bileti, 1 rubl, 1884 il. Üz və arxa tərəfi, ölçüsü: 4,5 x 9 sm

6. İnv. № 5. Dövlət kredit bileti, 10 rubl, 1884 il. Üz və arxa tərəfi, ölçüsü: 16,6 x 10 sm

7. İnv. № 6. Dövlət kredit bileti, 1rubl, 1898 il. Üz və arxa tərəfi, ölçüsü: 14,8 x 9 sm

Rusiyanın 1896-cı il pul islahatına qədər olan buraxılışlarının Azərbaycanda dövriyyəsi

8. İnv. № 14. Dövlət kredit bileti, 10 rubl, 1898 il. Üz və arxa tərəfi, ölçüsü: 17,3 x 10,4 sm

9. İnv. № 16. Dövlət kredit bileti, 50 rubl, 1899 il. Üz və arxa tərəfi, ölçüsü: 19 x 11,7 sm

10. İnv. № 1206. Dövlət kredit bileti, 100 rubl, 1898 il. Üz və arxa tərəfi, ölçüsü: 25,5 x 12 sm

Rusiyanın Çar hökumətinin yeni islahatdan sonra buraxılışlarının Azərbaycanda dövriyyəsi

11. İnv. № 8. Dövlət kredit bileti, 3 rubl, 1905 il. Üz və arxa tərəfi, ölçüsü: 15,2 x 9,8 sm

12. İnv. № 10. Dövlət kredit bileti, 5 rubl, 1909 il. Üz və arxa tərəfi, ölçüsü: 15,5 x 9,8 sm

13. İnv. № 13. Dövlət kredit bileti, 10 rubl, 1909 il. Üz və arxa tərəfi, ölçüsü: 17,3 x 10,9 sm

14. İnv. № 15. Dövlət kredit bileti, 25 rubl, 1909 il. Üz və arxa tərəfi, ölçüsü: 17,7 x 10,9 sm

15. İnv. № 17. Dövlət kredit bileti, 100 rubl, 1910 il. Üz və arxa tərəfi, ölçüsü: 25,9 x 12,3 sm

16. İnv. № 18. Dövlət kredit bileti, 500 rubl, 1912 il. Üz və arxa tərəfi, ölçüsü: 27,2 x 12,5 sm

Rusiya İmperiyası xəzinədarlığının mübadilə nişanları, 1915-1917-ci illər

17-22. İnv. № 34,35, 37, 40, 41, 43.
1, 2, 3, 10, 15 və 20 qəpik dəyərli marka-pullar, 1915-1917 illər.
Üz və arxa tərəfi,
ölçüsü: 3 x 2,5 sm

XIX-XX əsrlərdə Azərbaycanda dövriyyədə olmuş qiymətli kağızlar

Rusiya imperiyası qiymətli kağızlarının buraxılışları, 1859-1917-ci illər

23 . İnv. № 2347. Dövlət fasiləsiz gəlir bileti. Müqəddəs Nina Qadın Xeyriyyə Cəmiyyətinin Şamaxı bölməsi.1859-cu il. Üz tərəfi, ölçüsü: 33 x 27 sm

23 a. İnv. № 2347. Dövlət fasiləsiz gəlir bileti. Müqəddəs Nina Qadın Xeyriyyə Cəmiyyətinin Şamaxı bölməsi.1859-cu il. Arxa tərəfi, ölçüsü: 33 x 27 sm

24. Inv. № 2348. Kür- Xəzər Səhmdar Gəmiçilik Cəmiyyətinin 250 rublluq səhmi.
Hacı Zeynalabdin Tağıyeve məxsusdur. 1904 il. Üz tərəfi, ölçüsü: 60 x 30 sm



SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.

Talon de l'action

(portant le № indiqué au verso).

A l'expiration du terme décennal pour lequel les coupons avec ce talon sont délivrés, il sera délivré au porteur de l'action susindiquée une nouvelle feuille de coupons pour les dix années suivantes.

Bakou, 1904.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
10-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1913.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
9-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1912.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
8-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1911.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
7-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1910.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
6-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1909.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
5-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1908.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
4-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1907.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
3-me coupon de l'action
(portant le № indiqué au verso)
pour toucher le DIVIDENDE de 1906.

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
2-me coupon de l'action

SOCIÉTÉ ANONYME KOURINSKO-KASPIISKOÏÉ DE BATEAUX À VAPEUR.
1-er coupon de l'action

24 a. Inv. № 2348. Kür- Xəzər Səhmdar Gəmiçilik Cəmiyyətinin 250 rublluq səhmi. Hacı Zeynalabdin Tağıyevə məxsusdur. 1904 il. Üz və arxa tərəfi, ölçüsü: 60 x 30 sm

ОБЛИГАЦІЯ ВЪ 100 РУБЛЕЙ.

№0702 №0702

ЗАЕМЪ ГОРОДА БАКУ 1895 ГОДА
ВЪ 500.000 РУБЛЕЙ.

ОБЛИГАЦІЯ
ВЪ СТО РУБЛЕЙ
НА ПРЕДЪЯВИТЕЛЯ
ПРИНОСЯЩАЯ ДОХОДА ПО 3½ ПРОЦЕНТА ВЪ ГОДъ.

VILLE DE BAKOU.
EMPRUNT MUNICIPAL, ÉMISSION DE 1895,
OBLIGATION 3½% DE CENT ROUBLES AU PORTEUR

ЗАЕМЪ ГОРОДА БАКУ 1895 ГОДА

Баку, 1895. Bakou.

25. İnv. № 217. Bakı şəhərinin 3 ½ %-li istiqrazı. 100 rubl, 1895 il. Üz tərəfi, ölçüsü: 34,5 x 24,5 sm



25 a. İnv. № 217. Bakı şəhərinin 3 ½ %-li istiqrazı. 100 rubl, 1895 il. Arxa tərəfi, ölçüsü: 34,5 x 24,5 sm

ОБЛИГАЦІЯ ВЪ 1000 РУБЛЕЙ

№079 №079

ЗАЕМЪ ГОРОДА БАКУ 1895 ГОДА
ВЪ 500.000 РУБЛЕЙ,
заключенный на основаніи ВЫСОЧАЙШЕ утвержденнаго 26 Мая 1895 года положенія Комитета Министровъ.

ОБЛИГАЦІЯ
ВЪ ТЫСЯЧУ РУБЛЕЙ
НА ПРЕДЪЯВИТЕЛЯ,
ПРИНОСЯЩАЯ ДОХОДА ПО 3½ ПРОЦЕНТА ВЪ ГОДЪ.

VILLE DE BAKOU.
EMPRUNT MUNICIPAL, ÉMISSION DE 1895,
au capital nominal de 500.000 roubles.
OBLIGATION 3½% DE MILLE ROUBLES AU PORTEUR

Баку, 1895, Bakou.

ЗАЕМЪ ГОРОДА БАКУ 1895 ГОДА

VILLE DE BAKOU. EMPRUNT MUNICIPAL. ÉMISSION DE 1895.

26. İnv. № 218. Bakı şəhərinin 3 ½ % -li istiqrazı. 1000 rubl, 1895 il. Üz tərəfi, ölçüsü: 34,5 x 24,5 sm

26 a. İnv. № 218. Bakı şəhərinin 3 ½ %-li istiqrazı.1000 rubl, 1895 il. Arxa tərəfi, il, ölçüsü: 34,5 x 24,5 sm

27 . İnv. № 35. Nobel qardaşları neft istehsalı yoldaşlığının səhmi, 250 rubl, 1911 il. Üz tərəfi, ölçüsü: 24 x 30 sm

27 a. İnv. № 35. Nobel qardaşları neft istehsalı yoldaşlığının səhmi. 250 rubl, 1911-ci il. Arxa tərəfi, ölçüsü: 24 x 30 sm


АКЦІЯ ВЪ 100 РУБЛЕЙ.

РУБЛЕЙ 100. М.Ф. ROUBLES 100.

НЕФТЕПРОМЫШЛЕННОЕ И ТОРГОВОЕ ОБЩЕСТВО
„И. Е. ПИТОЕВЪ и К°“

Уставъ Высочайше утвержденъ 30 Декабря 1906 года.

ОСНОВНОЙ КАПИТАЛЪ ОБЩЕСТВА 14.000.000 РУБЛЕЙ.

№040875 АКЦІЯ №040875

ВЪ СТО РУБЛЕЙ
НА ПРЕДЪЯВИТЕЛЯ

Société de l'Industrie du Naphte et du Commerce „I. E. PITOEFF et Cie“
Naphtha Industrial and Trading Company „I. E. PITOEFF & Co“

ACTION DE CENT ROUBLES AU PORTEUR
SHARE OF ONE HUNDRED ROUBLES TO BEARER

ACTION DE 100 ROUBLES
SHARE OF 100 ROUBLES

28. İnv. № 34. “ İ.Y.Pitoyev və K°”
Neft istehsalı və ticarət
Cəmiyyəti. 100 manatlıq səhm.
Üz tərəfi, ölçüsü: 23 x 32 sm


ЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО
„И. Е. ПИТОЕВЪ и К°“
ТАЛОНЪ акціи №040875

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1923 годъ

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1924 годъ

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1922 годъ

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1919 годъ

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1920 годъ

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1917 годъ

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „И. Е. ПИТОЕВЪ и К°“
ДИВИДЕНДА за 1918 годъ

28 a. İnv. № 34. “ İ.Y.Pitoyev və K°”
Neft istehsalı və ticarət
Cəmiyyəti.
100 manatlıq səhm.
Arxa tərəfi,
ölçüsü: 23 x 32 sm


№ 060361.

НЕФТЕПРОМЫШЛЕННОЕ и ТОРГОВОЕ ОБЩЕСТВО „А. И. МАНТАШЕВЪ и К°“.

SOCIÉTÉ DE L'INDUSTRIE DE NAPHTE ET DU COMMERCE „A. I. MANTACHEFF & Cie“.

ВРЕМЕННОЕ УДОСТОВѢРЕНІЕ на ОДНУ акцію въ ДВѢСТИ ПЯТЬДЕСЯТЪ рублей нарицательныхъ.

CERTIFICAT PROVISOIRE d'UNE action de DEUX CENT CINQUANTE roubles valeur nominale.

С.-Петербургъ 1913 г.

St. Pétersbourg 1913.

250 РУБЛЕЙ

29. İnv. № 36.
“A.İ.Mantaşev və K°”
Cəmiyyətinin səhmi.
250 rubl, 1913 il.
Üz tərəfi,
ölçüsü: 25 x 33 sm

СТО АКЦІЙ

Нефтепромышленное и Торговое Акціонерное Общество

подъ фирмою

„Каспійское Товарищество“.

Уставъ ВЫСОЧАЙШЕ утвержденъ 8 Сентября 1886 г.

Выпускъ 25,000 акцій, по 100 руб. каждая, на 2.500,000 руб. нарицательныхъ.

Временное Свидѣтельство

на СТО акцій по СТО РУБ. нарицательныхъ каждая

за №№

Выдано

за полные СТА сполна оплаченныхъ акцій.

С.-Петербургъ Мартъ 1914 г.

За Бухгалтера

Кассиръ

Правленіе

ОБРАЗЕЦ

СТО АКЦІЙ

30. İnv. № 37.
“Xəzər yoldaşlığı”
aksioner Cəmiyyətinin
səhmi. “Nümunə”,
100 rubl, 1914 il.
Üz tərəfi,
ölçüsü: 25 x 29,5 sm

Бинагадинское Нефтепромышленное и Торговое Общество.

Уставъ Общества ВЫСОЧАЙШЕ утвержденъ 27 Іюня 1906 года.

Первый дополнительный выпускъ 1914 года 4000 акцій, по 250 руб. каждая, на 1.000,000 руб. нарицательныхъ

ВРЕМЕННОЕ СВИДѢТЕЛЬСТВО

на предъявителя

на СТО АКЦІЙ перваго дополнительнаго выпуска 1914 года

№№ - вкл.

по 250 рублей нарицательныхъ каждая.

Настоящее временное свидѣтельство выдано на право полученія сполна оплаченныхъ сто акцій на предъявителя перваго дополнительнаго выпуска 1914 года Бинагадинскаго Нефтепромышленнаго и Торговаго Общества.

Бухгалтеръ

Кассиръ

Директоръ-Правленія

31. İnv. № 38. Binəqədi Neftsənaye və Ticarət Cəmiyyətinin səhmi. "Nümunə", 100 rubl, 1914 il. Üz tərəfi, ölçüsü: 33,5 x 30 sm

"БАКИНСКІЙ НЕФТЕПРОВОДЪ" НАСѢДНИКОВЪ И. К. и А. В. РЫЛЬСКИХЪ.

БАКИНСКІЙ НЕФТЕПРОВОДЪ

пудовъ №

УДОСТОВѢРЕНІЕ

гор. Баку, 19 г.

Г-ну

Симъ удостовѣряемъ, что

въ текущемъ м-цѣ 19 г.

пудовъ нефти, которые находятся на нашемъ нефтепроводѣ въ Черномъ городѣ въ Вашемъ распоряженіи. Настоящее удостовѣреніе предъявляется въ Городскую контору для фактической сдачи нефти, а перваго числа каждаго мѣсяца обязательно предъявляется для замѣны или отмѣтки. Незамѣненное или неотмѣченное конторою на первое число удостовѣреніе считается недѣйствительнымъ. Сдача нефти производится по бензиновой пробѣ.

Бухгалтеръ

32. İnv. № 39. İ.K. və A.V. Rılskilərin varislərinin "Bakı Neft kəməri" kontorunun neftin qəbul olunması vəsiqəsi, ilsiz. Üz tərəfi, ölçüsü: 30 x 26 sm

33. İnv. № 40. Sankt – Peterburq Beynəlxalq Kommersiya Bankının Bakı şöbəsi. 190 il. Ölçüsü: 16 x 11 sm*

34. İnv. № 2272. Bakı Kommersiya Bankının Sadıq Abdullayevə verdiyi hesab çeki, 1917 ilə qədər. Ölçüsü: 18,0 x 10,2 sm



35. İnv. № 1718. Aleksandrinski Rus-Müsəlman qızlar məktəbi nəzdindəki Şagird Yardımı Cəmiyyətinin istifadə olunmamış xeyriyyə mədaxil qəbzi. № 117, 191 il, birtərəfli. Ölçüsü: 20,0 x 12,4 sm*

Rusiya hökuməti dövlət xəzinədarlığının biletləri

36. İnv. № 1213. Dövlət xəzinədarlığının 4% -li 100 rubl dəyərli bileti.
1914 il. Üz və arxa tərəfi, ölçüsü: 14 x 15,5 sm

37. İnv. № 1214. Dövlət xəzinədarlığının 4%-lı 50 rubl dəyərli bileti.
1915 il. Üz və arxa tərəfi, ölçüsü: 14 x 15,5 sm

38 . İnv. № 63 Dövlət xəzinədarlığının 4%-li 100 rubl dəyərli bileti.
1915 il. Üz və arxa tərəfi, ölçüsü: 14 x 15,5 sm

1915-1917-ci illər Rusiya hökumətinin müvəqqəti buraxılışları və 1917-ci ilin Azadlıq istiqrazları

Rusiya hökuməti xəzinədarlığının mübadilə nişanları

39-42. İnv. № 23, 26, 28, 30. 1,2, 3, 5 qəpik dəyərli biletlər, 1915-1917 illər. Ölçüsü:.8 x 4,5 sm

43. İnv. № 31. 50 qəpik dəyərli bilet. 1915-1917 illər. Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 6 sm

Rusiya Müvəqqəti hökumətinin buraxılışları

44. İnv. № 50. Xəzinədarlıq nişanı. 20 rubl, 1917 il.
Üz və arxa tərəfi, ölçüsü: 6 x 5 sm

45. İnv. № 52. Xəzinədarlıq nişanı. 40 rubl, 1917 il.
Üz və arxa tərəfi, ölçüsü: 6 x 5 sm

46. İnv. № 54. Dövlət kredit bileti,
250 rubl, 1917 il.
Üz və arxa tərəfi,
ölçüsü: 17,3 x 10,3 sm

47. İnv. № 57. Rusiya 5%-li
“Azadlıq istiqrazı”,
50 rubl, 1917 il.
Üz və arxa tərəfi,
ölçüsü: 30,5 x 21 sm

48. İnv. № 58. Rusiya
5 %-li “ Azadlıq istiqrazı”,
100 rubl, 1917 il.
Üz və arxa tərəfi,
ölçüsü: 30,5 x 21 sm

49. İnv. № 60. Rusiya 5 %-li “ Azadlıq istiqrazı”, 500 rubl, 1917 il. Üz və arxa tərəfi, ölçüsü: 30,5 x 21 sm

50. İnv. № 62. Rusiya 5 %-li “ Azadlıq istiqrazı”, 1000 rubl, 1917 il. Üz və arxa tərəfi, ölçüsü: 30,5 x 21 sm

Azərbaycanda keçid dövrünün kağız pul emissiyaları

Rusiya imperiyası dağıldıqdan sonra, 1917-ci ilin noyabr ayında, Bakıda hakimiyyəti ələ alan Bakı Sovetinin Qərarına əsasən Bakı şəhər İdarəsinə ilk kağız pulların emissiyasının təşkili tapşırıldı.

1918-ci ilin yanvarında dövriyyəyə Bakı Bələdiyyəsi adından 5, 15 və 50 qəpik dəyərində xırda kağız (marka tipində) pul, 1, 3, 5, 10 və 25 manat (rubl) məbləğində iri kağız pul vahidləri buraxıldı. Bu pul vahidləri 1918-ci ilin aprelinə kimi keçmiş rus pulları ilə birlikdə dövriyyədə olmuş, kağız pul emissiyaları Bakıda Karantinnaya və Krasnovodsk (indiki Səməd Vurğun və Həzi Aslanov küçələrinin kəsişdiyi yerdə) küçələrinin kəsişməsində yerləşən "A.M.Dagesov və P.K.Zalinov yoldaşlığının" xromo-litoqrafiyasında çap edilmişdir.

Aprelin 25-də Bakı Sovetində bolşevik fraksiyası çoxluq əldə edərək hakimiyyəti aldıqdan sonra Bakı Bələdiyyəsi ləğv edildi və Bakı Xalq Təssərrüfatı Şurası yaradıldı. Bu qurumun qərarına əsasən Xalq maliyyə komissarı N.Nərimanovun göstərişi ilə dövriyyəyə yeni əsginazlar buraxıldı. 10, 25 və 50 manat (rubl) dəyərində olan bu əsginazların emissiyası xalq komissarı N.Nərimanovun imzası ilə icra edilirdi. Bakıda siyasi qüvvələrin balansı çox tez dəyişərək, bolşevik fraksiyasının istefasına və ingilislərin Bakıya gəlişinə səbəb oldu.

May ayının 28-də Tiflisdə müstəqil Azərbaycan Dövlətinin yaranması haqqında Deklarasiya imzalandı. Əvvəlcə gürcü, sonra da erməni nümayəndəliyi öz müstəqilliyini elan etdi; bununla elə Zaqafqaziya Komissarlığı adından buraxılan 1, 3, 5, 10, 50, 100 və 250 rubl dəyərində pul vahidləri iyul ayının 31-nə kimi dövriyyədə qalırdı. Azərbaycan Respublikasının pul dövriyyəsi tarixinin ən maraqlı və çox az tədqiq olunmuş səhifələrindən biri kimi 1918-ci ildə " Muğan Respublikası" adı ilə fəaliyyətdə olmuş qeyri-dovlət (separatist) quruluşunun natamam pul emissiya-

sını göstərmək olar. Həmin ildə Lənkəran qəzasında özünü mərkəzdən müstəqil elan etmiş Muğan Respublikası Muğan istiqrazı (Zaym Muğani) adında pul əvəzləyicilərini çap etməyə başladı. Dövriyyəyə buraxılmaq üçün 5,10, 25, 50, 100, 250 və 500 rubl məbləğində istiqrazların çap olunması nəzərdə tutulurdu. Lakin Gəncədən Bakıya köçən Azərbaycan hökuməti 1919-cu ilin əvvəllərində qəti tədbirlər görərək, bu separatist "respublikanın" fəaliyyətinə son qoydu və onu süquta yetirdi. Bu səbəbdən çap olunması tam başa çatmamış (yalnız birtərəfli) istiqrazlar öz vəzifəsini icra edə bilmədilər. Çap olunan istiqrazlar Lənkərandan Prişibə gətirildilər və orada, çox guman ki, məhv edildilər. Çapı başa çatmayan bu emissiya heç bir dizayna malik olmayaraq, daha çox siyasi xarakter daşıyırdı. Muğan istiqrazının 7 nominalda buraxılmasının nəzərdə tutulmasına baxmayaraq, bizə yalnız 25, 50 və 250 rubl dəyərində nüsxələr gəlib çatmışdır. Bunlar da əsasən bu istiqrazların 1920-22-ci illərdə Lənkəranda bəzi sovet və təsərrüfat idarələrində ağ kağız əvəzinə, xidməti blank kimi istifadə edilməsi hesabına saxlanılmışdır.

1918-ci ilin pul dövriyyəsi tarixinin çox maraqlı məqamlarından biri də Gəncə şəhərində yerləşən Azərbaycan hökumətinin xahişi ilə Qafqaz cəbhəsindən Türk korpusunun Bakıya gəlişi ilə əlaqədardır.Bakıda baş verən hərc–mərcliklərə son qoymaq, erməni və başqa ünsürləri şəhərdən təmizləmək və Azərbaycan hökumətinin Bakıya köçməsini təmin etmək üçün gələn türk əsgərləri öz qardaşlıq borcunu yerinə yetirdilər. Sentyabr-dekabr aylarında Bakıda olarkən, Türkiyə Qırmızı Aypara Cəmiyyəti 1 və 3 rubl məbləğində xeyriyyə lotereya biletlərini dövriyyəyə buraxdı. Bu lotereya biletləri və onun ayrılan kuponu ilin sonuna kimi Bakıda pul vahidi kimi tədavüldə olmuşlar. Bakıda siyasi böhran və hərc-mərcliklər zamanı yaranan pul qıtlığı bu biletlərin digər pul vahidlərilə birlikdə dövriyyəsini təmin etdi.

Bakı şəhər İdarəsinin pul layihələri, nümunələri və kağız pul emissiyaları, 1918-ci il

Bakı şəhər İdarəsinun pul layihələri



51. İnv. № 216.1 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 10,6 x 5,9 sm

52. İnv. № 216.3. 5 rubl, 1918 il. Üz tərəf, ölçüsü: 9,8 x 6,2 sm

53. İnv. № 216.2. 10 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 27 x 20 sm



54. İnv. № 216.4. Dövriyyəyə qəbul olunmayan əsginaz, 20 rubl, 1918 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,5 x 5,5 sm

Bakı şəhər Idarəsinin kağız pul əsginazların nümunələri

55. İnv. № 215.5. 1 rubl, 1918 il. Üz tərəfi, ölçüsü: 9,5 x 5,7 sm

56. İnv. № 215. 5 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 5,8 x 9 sm

57. İnv. № 215.3. 10 rubl, 1918 il.
Arxa tərəfi,
ölçüsü: 5,7 x 9,5 sm

58. İnv. № 215.6. 10 rubl, 1918 il.
Arxa tərəf, ölçüsü: 9 x 5,2 sm

59. İnv. № 215.7.8. Dövriyyəyə qəbul olunmayan əsginaz. 10 rubl, 1918 il.
Üz və arxa tərəfi, ölçüsü: 10,3 x 5,2 sm

60. İnv. № 213.1. Şəhər başçısı və İdarə üzvünün imzaları ilə, 10 rubl, 1918 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,5 x 5,8 sm

61. İnv. № 214. Dövriyyəyə qəbul olunmayan əsginaz.10 rubl, 1918 il.
Arxa tərəf, ölçüsü: 9,5 x 5,7 sm

62. İnv. № 215.2. 10 rubl, 1918 il, üz və arxa tərəf.
Şəhər başçısı və İdarə üzvünün imzaları ilə. 9,5x5,8 sm

63. İnv. № 215.3. Şəhər başçısı və İdarə üzvünün imzaları ilə. 10 rubl, 1918 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,5 x 5,8 sm

64. İnv. № 211. Müxtəlif rəngli əsginazlar. Şəhər başçısı və İdarə üzvünün imzaları ilə, 25 rubl, 1918 il. Üz tərəf, ölçüsü: 6,8 x 11 sm

65. İnv. № 211.
Müxtəlif rəngli əsginazlar.
Şəhər başçısı və İdarə üzvünün imzaları ilə,
25 rubl, 1918 il. Üz tərəf,
ölçüsü: 6,8 x 11 sm

66. İnv. № 211.
Müxtəlif rəngli əsginazlar.
25 rubl, 1918 il.
Arxa tərəf,
ölçüsü: 6,8 x 11 sm

Bakı Şəhər İdarəsi adından saxta əsginaz

67. İnv. № 286. Rus dilində "Saxta" ("фальшивый") sözü ştampla vurulmuşdur. 25 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 6,8 x 11 sm

Bakı Şəhər İdarəsinin pul nişanları buraxılışı

68. İnv. № 188. Marka-pul, dişli, 5 qəpik, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 4 x 3 sm

69. İnv. № 189 . Marka-pul, 15 qəpik, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 4 x 3 sm

70. İnv. № 192. Marka-pul, dişli, 50 qəpik, 1918 il.
Üz və arxa tərəfi, ölçüsü: 3,4 x 4,9 sm

71. İnv. № 195. marka-pul, 50 qəpik, 1918 il.
Üz və arxa tərəfi, ölçüsü: 3,4 x 4,9 sm

72. İnv. № 197. 1 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 9,5 sm

73. İnv. № 198. 3 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 9,5 sm

74. İnv. № 200. 5 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 9,5 sm

75. İnv. № 203. 10 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 5,5 x 9,5 sm

76. İnv. № 205. 25 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 6,8 x 11 sm

Bakı Şəhər Təsərrüfatı Şurasının pul nümunələri və kağız pul emissiyaları, 1918-ci il

Bakı Şəhər Təsərrüfatı Şurasının pul nümunələri

77. İnv. № 233. Kəsilməmiş əsginazlar, 9 ədəd, 10 rubl, 1918 il.
Arxa tərəfi, ayrılıqda hər birin ölçüsü: 6,5 x 9,8 sm

78. İnv. № 234. Kəsilməmiş əsginazlar, 9 ədəd, dişli, 10 rubl, 1918 il.
Üz tərəfi, ayrılıqda hər birin ölçüsü: 6,5 x 9,8 sm

79. İnv. № 234. Kəsilməmiş əsginazlar, 6 ədəd, 25 rubl, dişli, 1918 il.
Axa tərəfi, ayrılıqda hər birin ölçüsü: 6,5 x 9,8 sm

80. İnv. № 235. Kəsilməmiş əsginazlar, 6 ədəd, 25 rubl, dişli, 1918 il.
Üz tərəfi, ölçüsü: 6,5 x 9,8 sm

Bakı Şəhər Təsərrüfatı Şurasının kağız pul emissiyaları

81. İnv. № 221. 10 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 6,5 x 9,8 sm

82. İnv. № 223. 25 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 6,5 x 10,8 sm

83. İnv. № 229. 50 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 6,8 x 11 sm

"Osmanlı Hilal Əhmər (Qırmızı Aypara) cəmiyyəti", 1918-ci il

84. İnv. № 1165. Loteriya bileti, Bakı buraxılışı. 3 rubl, 1918 il. Üz tərəfi, ölçüsü: 11x6 sm

Muğan Respublikasının buraxılışı, 1918-ci il



85. İnv. № 238. Muğan istiqrazı, 25 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 17,8 x 18,2 sm

86. İnv. № 239. Muğan istiqrazı, 25 rubl, 1918 il. Üz tərəfi, ölçüsü: 17,8 x 17,8 sm



87. İnv. № 240. Muğan istiqrazı, 250 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 13,5 x 13 sm

Zaqafqaziya Komissarlığının kağız pul emissiyaları, 1918-ci il

88. İnv. № 170. Bon, 1 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 7,8 x 5,8 sm

89. İnv. № 172. Bon, 3 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 9 x 6,3 sm

90. İnv. № 125. Bon, 5 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 7,8 x 11,4 sm

91. İnv. № 176. Bon, 10 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 7,8 x 11,8 sm

92. İnv. № 178. 50 rubl, 1918 il. Üz və arxa tərəfi, ölçüsü: 8,8 x 13,8 sm

93. İnv. № 180.
100 rubl, 1918 il.
Üz və arxa tərəfi,
ölçüsü: 10 x 15,5 sm

Azərbaycanın müstəqil kağız pul emissiyaları

1919-cu ildə ilk dövlət emissiyasının sifarişini və nəzarətini hökumətin nəzdində yaranan Dövlət kağızlarının hazırlanması üzrə Azərbaycan Ekspedisiyası həyata keçirirdi.

Azərbaycan Cumhuriyyətinin birinci kağız pul emissiyası ilin əvvəlində Azərbaycan Hökuməti adından 100 manat dəyərində əsginazın buraxılışı ilə başladı. Əsginazlar seriyasız və "ikinci seriya" dərəcələri ilə çap olundu. İlin ortalarında Cumhuriyyətin ikinci kağız pul emissiyası Azərbaycan Respublikası adından 25, 50, 100 və 250 manat dəyərində əsginazların buraxılışı ilə davam etdirildi. Dövriyyəyə daxil olan 25 manat – I - VIII seriya, 50 manat – I - IX seriya, 100 manat – III - VIII seriya, 250 manat – I - IX seriya dərəcələri və əlifba sırası ilə ikihərfli literlərə çap olundu. Cumhuriyyətin ikinci kağız pul emissiyası 1919-cu ilin sonunda dövriyyəyə 500 manatlıq əsginazların buraxılışı ilə başa çatdı.

Dövriyyədə böyük nominallı əsginazların tədavülünə olan ehtiyacı təmin etmək məqsədilə bu pulların - yəni 500 manatlıq əsginazların çapı 1920-ci ilin əvvəlində də davam etdirildi.

Əsginazlar dövriyyəyə I - LV (55) seriya dərəcəsi ilə buraxıldı. Bu əsginazın digər əsginazlardan əsas fərqi üzərində Azərbaycan, rus dillərindən savayı, dövlətin adının və əsginazın dəyərinin fransiz dilində verilməsi idi. Bu əsginaz dövriyyəyə daxil edilməmişdən əvvəl bütün dövlət qurumlarına, banklara onun diaqonal üzrə çap olunmuş "образец" (nümunə) sözləri olan nüsxələri göndərildi.

Cumhuriyyətin 1919-1920-ci illərdə buraxılmış pul vahidlərinin üzərində onların dəyəri Azərbaycan dilində manatla, rus dilində isə rublla verildi. Bunun əsas səbəbi əhalinin uzun müddət Rusiya əsginazlarının tədavülünə öyrəşməsi, hələ də dövriyyədə keçmiş çar əsginazlarının qalması ilə bağlı olması və istehlakçıların inamını qazanmaq idi. Azərbaycan Hökumətinin bu sahədəki iqtisadi siyasəti onun milli valyutası olan manatın beynəlxalq miqyasda tanınması işinə yönəlmişdi. Məhz bu baxımdan, Azərbaycanın Antanta dövlətləri tərəfindən tanınması nəzərə alınaraq, 500 manatlıq əsginazın üzərində Respublikanın adı və pulun dəyəri fransız dilində verilmişdi.

Azərbaycan Cumhuriyyətinin birinci pul emissiyasının dizaynı özünün forma və məzmununa, istifadə olunan rənglərin ahənginə, tətbiq olunan milli üslubda işlənmiş naxışların verilməsinə görə təkrarolunmaz hesab edilə bilər. Əsginazların bütün nümunələrində təqdim olunan səthin tam işlənməsi, fon təsvirlərinin başdan-başa milli bəzək naxışları ilə doldurulması, əsginazların arxa hissəsinin

xalçalarda tətbiq olunan naxışlarla verilməsi çox mənalı və gözəl təsir bağışlayır. Bu emissiyanın bütün nominallarında eyni üslubun saxlanılması əsginazların daha da effektiv görünməsinə kömək edir.

Azərbaycan Cumhuriyyətinin kağız pul dövriyyəsi tarixinin maraqlı səhifələrindən biri də çox dəyərli sənədlərdən sayılan Bakı şəhər daxili faizsiz, aparışlı (uduşlu) 500 manat məbləğində istiqrazların buraxılışıdır. Bu istiqraz Azərbaycan Hökumətinin icazəsi ilə Bakı İdarəsi tərəfindən 1919-cu il avqust ayının 20-də buraxılmışdır. Bu biletin üzərində istiqrazın buraxılması haqqında Qanundan iqtibas, uduşun miqdarı, qaydaları və müddəti göstərilmişdir.

1920-ci il aprel ayının 28-də Bakıya həmlə edən XI Qızıl ordu şəhərdə qeyri-leqal fəaliyyət göstərən bolşevik dəstələrinin köməyi ilə Parlamentin iclasında Azərbaycan Hökumətinin süquta yetirilməsinə nail oldu. Azərbaycan İnqilab Komitəsi başda N.Nərimanov olmaqla hakimiyyəti ələ aldı. Tezliklə, yəni 1920-ci ildə Azərbaycan İctimai Şura Cumhuriyyətin ilk kağız pul emissiyası həyata keçirildi. Dövriyyəyə böyük formatda 1000 manat dəyərində əsginaz buraxıldı. Bir müddətdən sonra, həmən 1920-ci ildə ikinci buraxılış həyata keçirildi. Dövriyyəyə 2 variantda 5 və 100 manatlıq və kiçik formatda 1000 manatlıq əsginaz buraxıldı. Bu iki buraxılışın maraqlı xüsusiyyətlərindən biri də əsginazların Azərbaycan dilindəki mətnində dövlətin adının Azərbaycan İctimai Şura Cumhuriyyəti kimi verilməsidir.

1922-ci ilin kağız pul emissiyası 4 yeni nominalla – 5 000, 10 000, 25 000 və 50 000 manat dəyərində həyata keçirildi.

Daha da böyük sahələri əhatə etdiyindən, pul vahidləri dəyərsizləşdiyindən və alıcılıq qabiliyyətinin itirilməsinə məruz qaldığından Azərbaycan Hökuməti dövriyyəyə daha iri nominallı pul vahidlərini buraxmağa məcbur olur. Beləliklə, dövriyyəyə 3 yeni 100000 (3 variantda), 250000 (2 variantda) və 1000000 manatlıq əsginaz əlavə olunur. Lakin görülən bu tədbirlər milli valyutanın kursunun sabit saxlanılmasına kömək etmir.1923-cü ildə Azərbaycan Hökuməti dövriyyəyə yeni ən böyük nominallı 5000000 manatlıq əsginaz daxil edir.

1920-1923-cü illərdə dövriyyəyə buraxılan əsginazların üzərində onların dəyəri Azərbaycan dilində manatla, rusca isə rublla göstərilmişdir. Sovet Rusiyasının böyük təsirinə baxmayaraq, Azərbaycanın sovet dövrü əsginazlarında milli üslubda naxışlar və ornamentlərdən istifadə edilmişdir. Bütün emissiyanın rəsmi nümunələri çap edilərək, dövrü mətbuatda dərc edilmiş və aidiyyatı olan təşkilatlara paylanmışdır. Bütün əsginazlarda (Cumhuriyyətin emissiyasından fərqli olaraq) dövlət atributlarının elementləri- “aypara və beşguşəli ulduz”, “oraq və çəkic” təsvir edilmiş, üzərində buraxıldığı tarix göstərilmişdir. Çap prosesində su nişanlarından yalnız bir neçə nominalda – 25 000, 100 000, 250 000 və 1 000 000 manatlıq əsginazlarda istifadə olunmuşdur. Bütün əsginazlarda Xalq Maliyyə Komissarının və kassirin imzaları verilmişdir. Bu əsginazların dizaynında ilk buraxılışlarda istifadə edilən prinsiplər əsas götürülərək və dövlət ideologiyasına uyğun olaraq təsvirlərə fəhlə və kəndlinin ümumiləşdirilmiş obrazları (5, 100, 5 000 və 10 000 manatda), digər hallarda isə “aypara və ulduz”, “oraq və çəkic” və bəzən də gerbin təsviri verilmişdir.

1921-1922-ci illərdə iqtisadi böhranın kəskinləşməsi nəticəsində dövriyyəyə buraxılan iri nominallı əsginazların emissiyası ümumi vəziyyəti yaxşılaşdıra

bilmədi. Ümumdövlət pul vahidlərinin dəyərsizləşməsi nəticəsində istehlakçı, kooperativ, ictimai yerli orqan və təşkilatların qiymətli kağızlar, pul əvəzləyicilərinin dövriyyəsinin vacibliyi meydana gətirdi. Bu qiymətli kağızların, çeklərin, talonların, ərzaq qəbzlərinin, əmək günü biletlərinin emissiyasının həyata keçirilməsində əsas amil Rusiyada Sovet Hökumətinin yeritdiyi Yeni İqtisadi Siyasətin Azərbaycan iqtisadiyyatına təsiri ilə bağlı idi.

Ölkədə kəskinləşən iqtisadi böhran pul qıtlığı ilə bərabər malların qıtlığını da artırdı. Əhali dəyərsizləşən dövlət pul vahidlərinə lazım olan vacib ərzaq və istehlak mallarını ala bilmirdi. Buna görə də bir çox iri təsərrüfatlar, kooperativlər, ictimai və dövlət yönlü təşkilatlar gördükləri işin, göndərdikləri malların əvəzinə ərzaq və istehlak malları alaraq, onları öz işçilərinə daxili dövriyyəsi olan pul əvəzləyici vahidləri, talonlar və çeklər ilə paylayırdılar.

Azərbaycan kağız pul dövriyyəsi tarixinin bu səhifəsi öz ömrünü 1923-cü ilin mart ayında, dövriyyəyə SSRİ pul vahidlərinin daxil olması ilə başa çatdırdı.

1923-24-cü illərdə Azərbaycanın pul dövriyyəsində milli pul vahidləri ilə birgə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının əsginazları da iştirak edirdi. 1922-ci ilin dekabrında 3 müttəfiq respublikanın təşəbbüsü ilə yaradılan Federativ Respublikanın mərkəzi Tiflisdə yerləşməklə, 1923-cü ildən hər üçünün ərazisində kağız pul emissiyası həyata keçirildi.

Federasiya 1923-24-cü illərdə iqtisadi böhranları və kağız pul qıtlığını nəzərə alaraq 4 buraxılışı həyata keçirdi. ZSFSR-nın kağız pulları Azərbaycanda SSRİ əsginazları ilə bərabər bir neçə il dövriyyədə olmuşlar. Federasiyanın 1-ci buraxılışında dövriyyəyə 1 000, 5 000, 50 000, 100 000, 500 000 və 1 000 000 rubl dəyərində əsginazlar, 2-ci buraxılışında isə 5 000, 10 000, 50 000, 100 000, 250 000, 500 000, 1 000 000, 5 000 000 və 10 000 000 rubl dəyərində əsginazlar, 3-cü buraxılışda isə 10 000, 25 000, 50 000, 100 000, 250 000, 500 000, 1 000 000, 5 000 000 və 10 000 000 rubl dəyərində əsginazlar, 4-cü buraxılışda isə 25 000 000, 50 000 000, 75 000 000, 100 000 000, 250 000 000, 1000 000 000 və 10 000 000 000 dəyərində əsginazlar buraxılmışdır. Bu buraxılışların pul vahidləri iki cür çap olunmuşdur. Ümumiyyətlə o zamanki dünya pul tədavülü tarixində 10 milyard məbləğində pul vahidi yalnız bir dəfə - ZSFSR-ın emissiyasında çap olunub.

Azərbaycan kağız pul dövriyyəsinin tarixində müstəqil pul - şey və xeyriyyə lotereyalarının buraxılışı xüsusi maraq doğurur. Azərbaycan Cumhuriyyətinin bu xeyriyyəçilik ənənələri sovet dövründə də davam etmişdir. Hələ Azərbaycan SSR-nın ilk günlərində xeyriyyəçilik cəmiyyətimizdə ön plana çıxarılmışdı. Buna misal olaraq baxımsız və evsiz uşaqların ehtiyaclarını ödəmək üçün buraxılan lotereya biletlərini göstərmək olar. “Aclıq çəkənlərə kömək Mərkəzi Komitəsi”nin 1923-cü ildə 250 000 manat dəyərində lotereya biletləri, “Aclığın nəticələrinin ləğvi Cəmiyyətinin Mərkəzi Komitəsi”nin 250 000 və 500 000 manat dəyərində buraxdığı talonlar, 1927-ci ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Uşaq Komissiyasının 50 qəp. dəyərində əşya lotereyası, 1928-ci ildə Bakı Soveti nəzdində fəaliyyət göstərən Baxımsız və Evsiz Uşaqlarla Fövqəladə Mübarizə Komissiyasının 10 qəp. dəyərində buraxılan lotereya biletləri bu qəbildəndir.

Azərbaycan Xalq Cumhuriyyətinin kağız pul nişanları, qiymətli kağızları və pul əvəzediciləri, 1919-1920-ci illər

Azərbaycan hökumətinin kağız pul nişanlarının buraxılışı

94. İnv. № 2612. 100 manat. 1919 / 1335 il. Üz və arxa tərəfi, ölçüsü: 9 x 13 sm

Azərbaycan Cumhuriyyətinin kağız pul nişanlarının buraxılışı

95. İnv. № 1265.
1 manat. 1920 / 1336 il.
Üz tərəfi,
ölcüsü: 8 x 5,5 sm

96. İnv. № 247.
25 manat. 1919 / 1335 il.
Üz və arxa tərəfi,
ölçüsü: 6,8 x 15,5 sm

97. İnv. № 249. 50 manat. 1919 / 1335 il. Üz və arxa tərəfi, ölçüsü: 7 x 11 sm

98. İnv. № 265. 100 manat. 1919 / 1335 il. Üz və arxa tərəfi, ölçüsü: 9 x 13 sm

99. İnv. № 262-267.
Ardıcıl seriyalı 100 manatlıq əsginazlar.
1919 / 1335 il.
Üz tərəfləri,
ölçüsü: 9 x 13 sm

100. İnv. № 274. 250 manat. 1919 / 1335 il. Üz və arxa tərəfi, ölçüsü: 8 x 15 sm

101. İnv. № 291. 500 manat. 1920 / 1336 il. Üz və arxa tərəfi, ölçüsü: 9,5 x 15 sm

102. İnv. № 271-278.
Ardıcıl seriyalı 250 manatlıq əsginazlar. 1919 / 1335 il.
Üz və arxa tərəfləri,
ölçüsü: 8 x 15 sm

103. İnv. № 279-288.
Ardıcıl seriyalı
500 manatlıq əsginazlar.
1920 / 1336 il.
Üz və arxa tərəfləri,
ölçüsü: 9,5 x 15 sm

104. İnv. № 289-296.
Ardıcıl seriyalı
500 manatlıq əsginazlar.
1920 / 1336 il.
Üz tərəfləri,
ölçüsü: 9,5 x 15 sm

105. İnv. № 297-307. Ardıcıl seriyalı
500 manatlıq əsginazlar.
1920 / 1336 il.
Üz tərəfləri, ölçüsü: 9,5x15 sm

106. İnv. № 308-316. Ardıcıl seriyalı
500 manatlıq əsginazlar.
1920 / 1336 il.
Üz tərəfləri, ölçüsü: 9,5 x 15 sm

107. İnv. № 317-322.
Ardıcıl seriyalı
500 manatlıq əsginazlar.
1920 / 1336 il.
Üz tərəfləri, ölçüsü: 9,5 x 15 sm

Azərbaycan Xalq Cumhuriyyətinin qiymətli kağızları. Bakı istiqrazının buraxılışı

108. İnv. № 207. “Aparışlı bilet”.
1919 il. 500 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 30,5 x 21,5 sm

Müttəffiq Dövlətlərin Nəzarət Komissiyasının qəbzi

109. İnv. № 209. Qəbz, 9300 manatlıq. Üz və arxa tərəfi, ölçüsü: 15,4 x 9,3 sm

Azərbaycan Xalq Cumhuriyyəti Bakı Bələdiyyə İdarəsinin lotereya biletinin layihəsi

110. İnv. № 1264. Lotereya biletinin təsdiq olunmamış nümunəsi. Arxa tərəfi, ölçüsü: 11 x 6,1 sm

Azərbaycan Dövlət Bankının çeki

111. İnv. № 1715. Dəniz Nəqliyyatı İdarəsinin haqq-hesab çeki, istifadə olunmamış nüsxə. Ölçüsü: 21,3 x 10,6 sm

Kağız pul əvəzediciləri

Xəzər dənizində Böyük Britaniya Dəniz Nəqiliyyatı İdarəsinin buraxılışı

112. İnv. № 1074. 5 manat, 1919 il. Üz və arxa tərəfi, ölçüsü: 14 x 8,5 sm

113. İnv. № 1076. 25 manat, 1919 il. Üz və arxa tərəfi, ölçüsü: 14 x 8,5 sm

Azərbaycan İctimai Şura Cumhuriyyətində işlədilən pul nişanları, nümunələri, qiymətli kağızlar və pul əvəzediciləri, 1920-1923-cü illər

Azərbaycan İctimai Şura Cumhuriyyətində işlədilən pul nişanları

114. İnv. № 342. 1000 manat. 1920 / 1336 il. Üz və arxa tərəfi, ölçüsü: 10,12 x 16,7 sm

115. İnv. № 324.
5 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 6,3 x 4,8 sm

116. İnv. № 326. 100 manat. Üz və arxa tərəfi, ölçüsü: 6 x 9,2 sm

117. İnv. № 328. 1000 manat. 1920 / 1336 il. Üz və arxa tərəfi, ölçüsü: 6,5 x 10,12 sm

118. İnv. № 346. 5000 manat. 1921 / h. 1339 il. Üz və arxa tərəfi, ölçüsü: 9,3 x 14,8 sm

119. İnv. № 347. 1000 manat. 1921 / h. 1339 il. Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 14,6 sm

120. İnv. № 349. 25 000 manat. 1921 / h. 1339 il. Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 14,3 sm

121. İnv. № 351. 50 000 manat. 1921 / h. 1339 il. Üz və arxa tərəfi, ölçüsü: 9,3 x 14,3 sm

122. İnv. № 354. 100 000 manat. 1922 / h. 1340 il. Üz və arxa tərəfi, ölçüsü: 9 x 13,2 sm

123. İnv. № 356. 250 000 manat. 1922 / h. 1340 il. Üz və arxa tərəfi, ölçüsü: 9,2 x 14,7 sm

124. İnv. № 357. 1.000 000 manat. 1922 / h. 1341 il. Üz və arxa tərəfi, ölçüsü: 9,2 x 14,6 sm

125. İnv. № 360. 5.000 000 manat. 1923 / h. 1341 il. Üz və arxa tərəfi, ölçüsü: 9,7 x 15,7 sm

Azərbaycan İctimai Şura Cumhuriyyətinin pul nişanlarının nümunələri və qüsurlu buraxılışlar

126. İnv. № 361. 1000 manat dəyərli əsginazın nümunəsi. 1920 / h. 1336 il. Üz tərəfi, ölçüsü: 10,13 x 16,7 sm

127. İnv. № 362. 1000 manat dəyərli əsginazın nümunəsi. Arxa tərəfi, ölçüsü: 10,13 x 16,7 sm

128. İnv. № 1192. 1 000 000 manat dəyərli əsginazın nümunəsi. 1922 / h. 1341 il. Üz tərəfi, ölçüsü: 9,2 x 14,6 sm

129. İnv. № 363. 10 000 manat dəyərli əsginazın nümunəsi. Arxa tərəfi, ölçüsü: 9,8 x 14,6 sm

130. İnv. № 1192.
1000 000 manat dəyərli əsginazın nümunəsi.
Arxa tərəfinin qüsurlu çapı, ölçüsü: 9,2 x 14,6 sm

131. İnv. № 363. 10 000 manat dəyərli əsginazın üz tərəfinin seriya nömrəsinin qüsurlu çapı “1344-1544”. 1921 / h. 1339 il. Üz tərəfi, ölçüsü: 9,8 x 14,6 sm

Azərbaycan İctimai Şura Cumhuriyyətində işlədilən qiymətli kağızlar, 1921-ci il

AİŞC Xalq ərzaq komissarlığı. Çörək kartları.

“Qırmızı ulduz” təşkilatının buraxılışı

132. İnv. № 2269. Çörək kartı, Bakı. Üz tərəfi, ölçüsü: 22,5 x 16,5 sm

133. İnv. № 2270. Çörək kartı. Üz və arxa tərəfi, ölçüsü: 22,5 x 16,5 sm

134. İnv. № 2271. Çörək kartı. Üz və arxa tərəfi, ölçüsü: 22,5 x 16,5 sm

Azərbaycan Ictimai Şura Cumhuriyyətinin pul əvəzediciləri, 1922-ci il

“Qrozneft Mərkəzi Neft İdarəsi”nin hesablaşma orderləri

135. İnv. № 1667. Hesablaşma orderi, 1 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 6 sm

136. İnv. № 1663. Hesablaşma orderi, 3 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 6 sm

137. İnv. № 1664. Hesablaşma orderi, 5 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 6 sm

138. İnv. № 1062. Hesablaşma orderi, 10 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 9,9 x 6,1 sm

139. İnv. № 1668. Hesablaşma orderi, 50 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 11,9 x 7,4 sm

140. İnv. № 1670. Hesablaşma orderi, 250000 rubl. Üz və arxa tərəfi, ölçüsü: 11,7 x 7,5 sm

141. İnv. № 1061. Hesablaşma orderi, 1 000 000 rubl. Üz və arxa tərəfi, ölçüsü: 11,7 x 7,5 sm

142. İnv. № 2281. Əlahiddə Qafqaz ordusu "Vətəndaş müharibəsi qurbanları" üçün uduşlu lotereya biletinin kuponu. 25000 rubl. 1923 il. Üz və arxa tərəfi, ölçüsü: 15,8 x 8,8 sm.

Zaqafqaziya Şura Cumhuriyyəti Federativ İttifaqının kağız pul emissiyaları, qiymətli kağızlar və pul əvəzediciləri, 1923-1924-cü illər

Zaqafqaziya Şura Cumhuriyyəti Federativ İttifaqının kağız pul emissiyaları

143. İnv. № 499.
1000 rubl,
su nişanlı kağızda.
Üz və arxa tərəfi,
ölçüsü: 10,1 x 17,2 sm

144. İnv. № 501. 5000 rubl, su nişanlı kağızda. Üz və arxa tərəfi,
ölçüsü: 10,8 x 17,0 sm

145. İnv. № 503. 10 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 10,0 x 16,8 sm

146. İnv. № 505. 25 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 10,5 x 16,9 sm

147. İnv. № 508. 50 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 10,0 x 16,8 sm

148. İnv. № 70. 100 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 16,8 sm

149. İnv. № 1285. 250 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 16,8 sm

150. İnv. № 1287. 500 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,8x16,8 sm

151. İnv. № 1289. 1000 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 16,8 sm

152. İnv. № 1291. 5000 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 16,8 sm

153. İnv. № 1293. 10 000 000 rubl. 1923 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,8 x 16,8 sm

154. İnv. № 1294. 25 000 000 rubl. 1924 il.
Üz və arxa tərəfi, ölçüsü: 10,0 x 17,2 sm

155. İnv. № 1295. 50 000 000 rubl. 1924 il.
Üz və arxa tərəfi, ölçüsü: 10 x 10,8 sm

156. İnv. № 1294. 100 000 000 rubl, su nişansız kağızda. 1924 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,9 x 16,8 sm

157. İnv. № 1298. 75 000 000 rubl. 1924 il.
Üz və arxa tərəfi, ölçüsü: 9,2 x 18,4 sm

158. İnv. № 1300. 250 000 000 rubl,
su nişanlı kağızda. 1924 il.
Üz və arxa tərəfi,
ölçüsü: 10,1 x 19,6 sm

159. İnv. № 1302.
1 milyard rubl,
su nişanlı kağızda.
1924 il.
Üz və arxa tərəfi,
ölçüsü: 9,4 x 19,0 sm

Zaqafqaziya Sovet Sosialist Respublikasının kağız pul əvəzediciləri

Zaqafqaziya Dəmir Yolu İdarəsinin buraxılışı

160-161. İnv. № 1063-1064. 5000 rubl, hesablaşma nişanı, ilsiz.
Üz və arxa tərəfi, ölçüsü: 11,5 x 7,5 sm

162-163. İnv. № 1658, 1065. 10000 rubl, hesablaşma nişanı, ilsiz.
Üz və arxa tərəfi, ölçüsü:11,5 x 7,5 sm

164-165. İnv. № 1066, 1059.
25000 rubl,
hesablaşma nişanı, ilsiz.
Üz və arxa tərəfi,
ölçüsü: 11,5 x 7,5 sm

166. İnv. № 1660,
50000 rubl,
hesablaşma nişanı, ilsiz.
Üz və arxa tərəfi,
ölçüsü: 11,5 x 7,5 sm

167-168. İnv. № 1067,1661.
100000 rubl,
hesablaşma nişanı, ilsiz.
Üz və arxa tərəfi,
ölçüsü: 11,5 x 7,5 sm

1924-1991-ci illərdə Sovet Sosialıst Respublikaları İttifaqının kağız pul emissiyaları

1923 - 1992-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikası ərazisində SSRİ-nin kağız pul vahidləri dövriyyədə olmuşdur.

SSRİ-də 1924-cü ildə başa çatmış pul islahatı nəticəsində yeni ödəmə vasitələri sistemi yaradıldı. Dövriyyədə olan əmtəə məhsulları və qızılla təmin olunmuş kredit pul nişanlarının buraxılışı Dövlət tərəfindən təmin edilirdi.

SSRİ-də pul islahatı başa çatdıqdan sonra 1925-ci ildə 3 və 5 rubl dəyərində SSRİ Dövlət Xəzinədarlıq biletləri; 1926-1928-ci illərdə SSRİ Dövlət bankının 1, 2 və 5 çervonetsets dəyərli biletləri; 1928-ci ildə 1 rubl dəyərində Dövlət Xəzinədarlıq bileti və 1932-ci ildə SSRİ Dövlət bankının 3 çervonetsets dəyərli biletlərinin buraxılışı həyata keçirildi.

1934-cü ildə SSRİ Hökuməti 1,3, 5 rubl dəyərində xəzinədarlıq biletlərinin yeni numunələrinin buraxılışını həyata kecirdi. Bu emissiya öz ödəniş qüvvəsini 1947-ci il pul islahatına qədər saxlayırdı.

1936-cı ilin dekabrında Sovetlərin Ümumittifaq Növbədənkənar VIII qurultayında SSRİ-nin yeni Konstitusiyası qəbul olundu. Yeni Konstitusiyaya əsasən Qazaxıstan və Qırğızıstan Muxtar Respublikası ittifaq respublikalarına çevrildi, Zaqafqaziya Federasiyası ləğv olundu və üç Zaqafqaziya respublikası SSRİ-nin tərkibinə bərabərhüquqlu dövlət kimi qəbul olundu. Bununla əlaqədar olaraq SSRİ-nin dövlət gerbində dəyişiklik edilərək, sünbül çələngində lentlərin sayı 11-ə çatdırıldı.

Yeni yaradılmış dövlətin gerbi 1937-ci ildə dövriyyəyə buraxılmış SSRİ Dövlət bankının 1, 3, 5 və 10 çervonetsets dəyərli biletlərində öz əksini tapdı. Yeni buraxılmış əsginazlarda ilk dəfə olaraq Sovet dövlətinin banisi V.İ. Leninin əksi çap olundu.

Dövriyyəyə buraxılan biletlərin üzərində onların nominalı ardıcıl olaraq 11 ittifaq respublikası dilində verilmişdi.

1937-ci il buraxılışının bu günə qədər mövcud olan emissiyalardan önəmli fərqi onların mətnində “Bank bileti qızıla dəyişdirilir” sözlərinin çıxarılmasında idi.

Ümumiyyətlə, 1937-ci ildən başlayaraq bu cümlə pul emissiyalarına tətbiq edilmədi.

SSRİ-nin dövlət gerbinin dəyişdirilməsi xəzinədarlıq biletlərində də nəzərə alınmalı idi. Bu məqsədlə 1938-ci ildə dövriyyəyə yeni dizaynlı 1, 3 və 5 rubl nominallı xəzinədarlıq biletləri buraxılır.

1937-ci il buraxılışlı həm SSRİ Dövlət Xəzinədarlıq, həm də Dövlət bankının biletləri Böyük Vətən müharibəsi dövründə, eləcə də 1947-ci il pul islahatı başa çatana qədər pul dövriyyəsində qaldı.

II Dünya müharibəsinin başa çatması, sənaye və kənd təsərrufatı məhsullarının inkişafı, mal - material ehtiyatlarının çoxalması, dövlət büdcəsinin balanslaşması, kommersiya ticarətinin artması, xalq istehlakı malları istehsalının genişlənməsi pul dövriyyəsinin stabilləşməsində və pul islahatının aparılmasında vacib amil idi.

ÜİK (b)P MK və SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 14-də "Pul islahatının keçirilməsi, ərzaq və sənaye mallarına kartların ləğv edilməsi" barədə Qərar qəbul etdi. 1947-ci ilin pul islahatı keçirilərkən dövriyyədə olan pul nişanları yeniləri ilə (10:1 nisbətində) əvəzləndi.

Bu islahat nəticəsində dövriyyəyə 1, 3, 5 rubl dəyərindəDövlət Xəzinədarlıq biletləri və 10, 25, 50 və 100 rubl dəyərində Dövlət Bankı biletləri buraxıldı. Xəzinədarlıq biletlərində SSRİ-nin yeni gerbinin təsviri verildi. Yeni gerbdə 16 respublikanı təmsil edən lent yazıları verilmiş mətndəki yazılar bütün respublikaların dilində təqdim edilmişdi. Dövlət bankının biletlərində 1937-ci il buraxılışında olduğu kimi Sovet dovlətinin banisi V.İ. Leninin əksi təsvir olunmuşdu.

Yeni Dövlət bankı biletləri üzərində "Dövlət bankının qızıl, qiymətli metallar və digər aktivləri ilə təmin olunur" mətni verilmişdi.

1947-ci il islahatının keçirilməsi dövriyyədə olan artıq pul kütləsinin təcrid edilməsinə, pul təsərrufatının möhkəmləndirilməsinə, xalq istehlakı mallarının sərbəst ticarətinin aparılmasına imkan verdi.

XX əsrin 50-ci illərində SSRİ iqtisadiyyatının sürətli inkişafı, mal dövriyyəsinin və istehsalın həcminin artması ölkədə pul kütləsinin çox böyük həcmlərə çatmasına səbəb oldu. Bununla əlaqədar olaraq xalq təsərrufatında pul kütləsinin qeydiyyatı, planlaşdırılma və hesablaşmaların təşkilinin sadələşdirilməsi, dövriyyədə olan nəğd pulun nominalının azaldılması məqsədilə 1 yanvar 1961-ci il tarixindən başlayaraq qiymət masştabının 10:1 nisbətindən dəyişdirilməsi haqqında SSRİ Nazirlər Soveti 04 may 1960-cı il tarixli Qərar qəbul etdi.

1961-ci il islahatı nəticəsində dövriyyəyə yeni dizaynlı 1, 3 və 5 rubl dəyərli xəzinədarlıq biletləri və SSRİ Dövlət bankının 10, 25, 50 və 100 rubl dəyərli biletləri buraxıldı. Kağız pul nişanları ilə yanaşı dövriyyəyə 1, 2, 3, 5, 10, 15, 20, 50 qəpiklik və 1 rubl nominallı metal xırda pullar daxili edildi.

Dövriyyədən çıxarılan əsginazların dəyişdirilməsi 1961-ci ilin 1 yanvar tarixindən 1 aprel tarixinə kimi məhdudiyyət qoyulmadan həyata keçirildi.

1961-ci il Dövlət Xəzinədarlıq biletlərinin üzərində SSRİ-nin gerbi, əsginazların üst tərəfində rus, arxa hissəsində isə 14 respublikanın müvafiq dillərində pulun nominalı və adı verilmişdi. Buraxılışın Dövlət bankının biletlərinin üzərində onların adı, dəyəri, dövlətin gerbi və V.İ. Leninin portreti, "Qızıl qiymətli metallar və Dövlət bankının digər aktivləri ilə təmin olunur" sözləri verilmişdi. Bu emissiyanın digər buraxılışlardan fərqli cəhəti ondan ibarət idi ki, əsginazların ölçüləri həm kiçildilmiş, həm də unifikasiya edilmişdi. 3 və 5 rubl xəzinədarlıq nişanları, 10 və 25, həmçinin

50 və 100 rubl Dövlət bankı biletlərinin ölçüləri uyğunlaşdırılmışdır. 1961-ci il buraxılışı kağız pul nişanlarının ölçülərinin uyğunlaşdırılması, onların hesablama maşınları vasitəsi ilə sayılmasının tətbiqini xeyli asanlaşdırdı.

1970-ci və 1980-ci illərin əvvəllərində SSRİ-də başlayan iqtisadi tənəzzül əmək məhsuldarlığına mənfi təsir göstərdi. Xalq təsərrüfatı planları artıqlaması ilə yerinə yetirilirsə də, məhsulların faktiki istehsalı çox zaman kəsirdə qalırdı. İqtisadçıların apardığı araşdırmalar göstərirdi ki, SSRİ-də 1971-1985-ci illərdə xalq təsərrüfatında pul ehtiyatları 3 dəfə, əhalinin əmanət kassalarındakı pul ehtiyatları isə 5 dəfə artmışdı. Bununla yanaşı həmin dövrdə SSRİ-də milli gəlir yalnız 1,8 dəfə artmışdı. Bu da pul emissiyalarının tempinin artması nəticəsində baş verirdi. Sonda istehlak mallarının istehsalının genişləndirilməsi ilə əsaslandırılmamış çoxalan pul kütləsi orta pərakəndə qiymətlərin artımına səbəb oldu. Nəticədə rubl qiymətsizləşməyə başladı.

İstehsalatın keyfiyyətinin aşağı düşməsi, müəssisələrin və əhalinin pul gəlirlərinin yüksək templə artdığı zaman məhsul kütləsinin zəif inkişafı, uzun muddət davam edən dövlət büdcəsinin kəsiri və dövlət borcunun daima artması SSRİ-nin pul təsərrüfatının pozulmasının səbəbləri sırasında idi. Bütün bu göstərilən səbəblər ölkə iqtisadiyyatının idarə olunmasının köklü sürətdə yenidən qurulmasını tələb edirdi. Pul dövriyyəsi və istehlak bazarının normallaşması, eləcə də qanunsuz ticarətlə, korrupsiya, qacaq-malçılıq, qəlp pulların hazırlanması, qeyri-qanuni gəlirlərlə mübarizənin gücləndirilməsi məqsədilə SSRİ Prezidentinin 22 yanvar 1991-ci il Fərmanı ilə 1961-ci il tarixli 50 və 100 rubl dəyərli biletləri - yeni 1991-ci il tarixli 50 və 100 rubl nominallı biletlərlə əvəzləndi.

1991-ci ildə dövriyyəyə əlavə olaraq 1,3, 5, 10, 50, 100, 200, 500 və 1000 rubl dəyərli dövlət bankının biletləri daxil edildi. Bu emissiyanın tərtibatında 1961-ci il buraxılışına riayət edilmişdi. Buraxılışın fərqli cəhəti - 1, 3 və 5 rubl dəyərli kağız pul nişanlarında “Xəzinədarlıq bileti” sözlərinin “Dövlət bankının biletləri” sözləri ilə dəyişdirilməsi idi.

26 dekabr 1991-ci ildə SSRİ Ali Soveti SSRİ dövlətinin mövcudluğunun dayandırılması haqqında Deklorasiya qəbul etdi.

Hüquqi olaraq SSRİ dövləti öz mövcudluğunu dayandırsa da, bu dövlətin sonuncu buraxılışı 1992-ci ilin əvvəlində dövriyyəyə yeni 50, 200, 500 və 1000 rubl dəyərli Dövlət bankı biletlərinin daxil edilməsi ilə başa çatdı.

1924-1938-ci illərdə pul nişanlarının buraxılışı və qiymətli kağızlar

SSRİ Dövlət Xəzinədarlıq biletlərinin buraxılışı

169. İnv. № 2339. 5 rubl. 1925 il. Üz və arxa tərəfi, ölçüsü: 16,3 x 6,8 sm

SSRİ Dövlət Bankı biletlərinin buraxılışı

170. İnv. № 2342. 1 çervon. 1937 il. Üz və arxa tərəfi, ölçüsü: 16 x 7,9 sm

171. İnv. № 2340. 2 çervon. 1928 il. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 8,8 sm

172. İnv. № 2341. 3 çervon. 1932 il. Üz və arxa tərəfi, ölçüsü: 15,2 x 8,8 sm

173. İnv. № 2343. 3 çervon. 1937 il. Üz və arxa tərəfi, ölçüsü: 17,2 x 8,8 sm

174. İnv. № 2344. 5 çervon. 1937 il. Üz və arxa tərəfi, ölçüsü: 18,0 x 9,2 sm

175. İnv. № 2345. 10 çervon. 1937 il. Üz və arxa tərəfi, ölçüsü: 19,0 x 9,6 sm

SSRİ Dövlət Xəzinədarlıq biletlərinin buraxılışı

176. İnv. № 2346. 1 manat. 1938 il. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,0 sm

177. İnv. № 2347. 5 manat. 1938 il. Üz və arxa tərəfi, ölçüsü: 14,3 x 7, 0 sm

Qiymətli kağızlar
İkinci Ümumittifaq “OSOAVİAXİM” lotereya bileti, 1927 il



178. İnv. № 2284. Lotereya bileti. 50 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 19,3 x 12,5 sm

Birinci “Aviaxim” Ümumittifaq Aviasiya Lotereyası buraxılışı, 1926-ci il

179. İnv. № 2283. Lotereya bileti. 50 qəpik. Üz və arxa tərəfi, ölçüsü: 19 x 12,7 sm

SSRİ Xalq Təsərrüfatı Şurasının Neft sektorunun qənaəti birinci uduşlu estafetinin buraxılışı, 1932-ci il

180. İnv. № 2130. Estafet bileti. 250 rubl. Üz və arxa tərəfi, ölçüsü: 20,7 x 11,6 sm

1947-ci il buraxılışı

Dövlət Xəzinədarlıq biletlərinin buraxılışı

181. İnv. № 2259. 1 manat, nümunə. Üz və arxa tərəfi, ölçüsü: 8,2 x 12,3 sm

182. İnv. № 2249. 3 manat, nümunə. Üz və arxa tərəfi, ölçüsü: 8,5 x 13,5 sm

183. İnv. № 2238. 5 manat, nümunə. Üz və arxa tərəfi, ölçüsü: 8,5 x 14,5 sm

184. İnv. № 2228. 10 manat, nümunə. Üz və arxa tərəfi, ölçüsü: 9,3 x 16 sm

185. İnv. № 2218. 25 manat, nümunə. Üz və arxa tərəfi, ölçüsü: 9,5 x 17 sm

186. İnv. № 2208. 50 manat, nümunə. Üz və arxa tərəfi, ölçüsü: 13 x 21,5 sm

187. İnv. № 2298.
100 manat, nümunə.
Üz və arxa tərəfi,
ölçüsü: 11,8 x 23 sm

1961-ci il buraxılışı

SSRİ Dövlət Xəzinədarlıq biletlərinin buraxılışı

188. İnv. № 2322. 1 manat. Üz və arxa tərəfi, ölçüsü: 3,3 x 10,5 sm

189. İnv. № 2323. 3 manat. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 11,4 sm

190. İnv. № 2324. 5 manat. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 11,4 sm

191. İnv. № 2327.
10 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 6,1 x 12,2 sm

192. İnv. № 2326. 25 manat. Üz və arxa tərəfi, ölçüsü: 6,1 x 12,2 sm

193. İnv. № 2328.
50 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 7,0 x 14,0 sm

194. İnv. № 2329.
100 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 7,0 x 14,0 sm

1991-1992-ci illər buraxılışı

SSRİ Dövlət Bankı biletlərinin buraxılışı

195. İnv. № 2329. 1 manat. Üz və arxa tərəfi, ölçüsü: 5,3 x 10,5 sm

196. İnv. № 2330. 3 manat. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 11,4 sm

197. İnv. № 2331. 5 manat. Üz və arxa tərəfi, ölçüsü: 5,7 x 11,4 sm

198. İnv. № 2332.
5 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 6,1 x 12,2 sm

199. İnv. № 2333. 100 manat. Üz və arxa tərəfi, ölçüsü: 7,0 x 14,4 sm

200. İnv. № 2334.
100 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 7,0 x 14,4 sm

201. İnv. № 2338.
1000 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 7,0 x 14,4 sm

1992-ci il buraxılışı

202. İnv. № 2335. 50 manat. Üz və arxa tərəfi, ölçüsü: 7,0 x 14,4 sm

203. İnv. № 2336.
200 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 7,0 x 14,4 sm

204. İnv. № 2337.
500 manat.
Üz və arxa tərəfi,
ölçüsü: 7,0 x 14,4 sm

Azərbaycan Respublikasının müstəqil kağız pul nişanları emissiyası

1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini elan etdi. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 1992-ci il tarixli "Azərbaycan Respublikası Milli Bankın yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 15 iyul 1992-ci tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" fərmanı, həmçinin 1992-ci ilin avqustundan milli valyutanın dövriyyəyə buraxılması ilə müstəqil Azərbaycan dövlətinin pul tədavülünün təşkil edilməsinin əsası qoyuldu.

1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq, noyabrında 5, 10, 20 və 50 qəpiklik, dekabrda 5 manatlıq, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manatlıq pul vahidləri dövriyyəyə buraxıldı.

1992-ci ilin avqustundan etibarən 1994-cü ilin yanvarınadək manat öz nominal dəyəri ilə respublika ərazisində 1 manat = 10 rubl nisbətində rubl ilə paralel olaraq, dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunmağa başladı. Yalnız Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 1993-cü il tarixli "Azərbaycan Respublikası milli valyutasının Respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" 58 saylı Fərmanı ilə manatın dövriyyədə yeganə ödəniş vasitəsi olması tətbiq olundu.

Milli Bank tərəfindən ölkədə nəğd pul dövriyyəsinin nizamlanması, nəğd pula olan tələbatın optimallaşdırılması və pul qıtlığı probleminin aradan qaldırılması məqsədilə 1994-cü ildə 10 000 manatlıq, 1996-cı ildə isə 50 000 manatlıq əsginazlar çap etdirilərək respublikaya gətirildi və dövriyyəyə buraxıldı.

Azərbaycan Respublikasında bank sisteminin inkişaf etdirilməsində və möhkəmləndirilməsində 1996-cı il iyul ayının 10-da qəbul edilmiş Azərbaycan Respublikasının Milli Bankı haqqında qanun əsas rol oynadı. Milli Bank məhz bu qanuna uyğun olaraq, pul-kredit siyasətinin başlıca istiqamətlərini hazırlayır, pul dövriyyəsinin sabitləşdirilməsi tədbirlərini həyata keçirir, strateji planlaşdırmaya müvafiq olaraq, prioritet istiqamətləri müəyyənləşdirir.

Azərbaycan Respublikasının 1-ci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən Fransada çap edildi. 1, 10 və 250 manat dəyərli əsginazlar sadə dizayna malik olmaqla, üz tərəfində Qız qalası, arxa tərəfində isə milli ornamentlərlə haşiyələnmiş əsginaz nominalı və "Azərbaycan Milli Bankı" sözləri çap olunmuşdur.

1993-cü ildə Milli Bank 1-ci emissiyanın davamı olaraq 1, 5, 10, 100, 500 və 1000 manat dəyərli əsginazları həmin şirkətdə çap etdirərək, dövriyyəyə daxil etdi.

İkinci emissiyanın dizaynı yaradılarkən 1 və 10 manatlıq əsginazların təsvirləri

dəyişdirilərək 5, 50 və 100 manatlıq əsginazlara uyğunlaşdırıldı. 500 manat nominallı pul vahidində dahi şairimiz Nizami Gəncəvi, 1000 manat nominalda Məmmədəmin Rəsulzadənin portreti verilmişdir. Hər iki əsginazın arxa tərəfi eyni üslubla yerinə yetirilmişdir.

Respublikada üçüncü pul emissiyası 1994-cü ildə Almaniyada "Giesecke & Devrient" şirkəti tərəfindən çap edilmişdir. Bu emissiya bir nominaldan – 10 000 manatlıq əsginazdan ibarət olmaqla, üz tərəfində Şirvanşahlar Saray Kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq, milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də söz ilə nominal verilmişdir. Respublikada dördüncü pul emissiyası 1995-ci ildə İngiltərənin "Thomas De La Rue" şirkəti tərəfindən çap edilmişdir. Bu emissiya bir nominaldan ibarət olaraq 50000 manat dəyərində 1996-cı ildən dövriyyəyə buraxılmışdır. Bu pul vahidinin üzərində orijinal üslubda Naxçıvanda olan memarlıq abidəsi " Mömünə Xatun türbəsi", arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilmişdir. Respublikada beçinci pul emissiyası İngiltərədə 2001-ci ilin dekabrında "Tomas De La Rue" şirkətində çap edilmişdir. Bu emissiya bir nominaldan ibarət olmaqla 1000 manat dəyərində buraxılmışdır. Bu əsginaz Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilmişdir. Əsginazın dizaynında ənənəvi çərçivələr və ornamentlərdən istifadə edilmişdir.

Azərbaycan Respublikasında son illər həyata keçirilən məqsədyönlü iqtisadi siyasət və geniş miqyaslı islahatlar nəticəsində iqtisadiyyatın dinamik inkişafına nail olunmuş, əhalinin yaşayış tərzi yaxşılaşmış, inflyasiyanın səviyyəsi məhdudlaşmış, manatın məzənnəsinin sabitliyi təmin edilmişdir. Məlum olduğu kimi, dövlət müstəqilliyinin ilk illərində dövriyyəyə buraxılmış milli valyutanın məzənnəsi həmən dövrdə baş verən sosial-iqtisadi böhranın təsiri nəticəsində sürətlə aşağı düşmüş və ölkədə yüksək qiymətlər miqyası formalaşmışdır.

İqtisadiyyatın sürətli artımı və inkişaf potensialı milli valyutanın-manatın məzənnəsinin dünyanın aparıcı valyutalarının məzənnələrinə uyğun səviyyədə formalaşması üçün əlverişli şəraitin yarandığını nəzərə alaraq və milli pul nişanlarının dizaynını, mühafizəsini, nominal strukturunu beynəlxalq standartlara uyğunlaşdırmaq, məzənnə və qiymətlər miqyasını optimallaşdırmaq, hesablama sistemini sadələşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 189 №li 7 fevral 2005-ci il tarixli Fərmanıyla 2006-cı il yanvarın 1-dən milli valyuta-manatın denominasiyası həyata keçirilir. Yeni manata keçid zamanı 1 yeni manat 5000 köhnə manata bərabər tutulur. Bu fərmanın icrası ilə əlaqədar Azərbaycan Respublikasının Milli Bankı yeni pul nişanlarının, o cümlədən metal sikkələrin tədavülə buraxılması üçün lazımi tədbirlər görərək, vahid dizayn konsepsiyalı, güclü müdafiə vasitələrinə malik yeni pul nişanlarının hazırlanmasını başa çatdıraraq 2005-ci ilin sonunda onların respublikaya gətirilməsini təmin etdi.

2006-cı ilin 1 yanvar tarixindən dövriyyəyə 1, 5, 10, 20, 50 və 100 manat dəyərində əsginazlar daxil edildi. Yeni əsginazların dizaynının müəllifi-vahid Avropa valyutasının yaradıcısı Robert Kalina olmuşdur. Əsginazlar Avstriya Respublikasında dövlət sifarişi əsasında çap edilmişdir. Əsginazların dövriyyəyə buraxılmasından əvvəl, Milli Bank tərəfindən hazırlanmış "Nümunələr", bukletlər və plakatlar çap olunaraq, bütün bank sistemində çalışan təşkilatlara göndərilir.

Yeni dizaynla hazirlanan 1 manatlıq əsginaz 120x70мм ölçüdə olaraq, üz

tərəfində milli musiqi alətləri tar, kamança və nağaranın təsvirləri yerləşdirilmiş, arxa tərəfində isə milli memarlıq (şəbəkə) naxışları və respublikanın xəritəsi verilmişdir. 5 manatlıq əsginaz 127x70мм olmaqla üz tərəfində ön planda ədəbiyyat atributları-qədim əlyazmaları, Azərbaycan Dövlət Himnindən nəqarət, arxa planda isə Azərbaycanın görkəmli yazıçıları M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, Xurşidbanu Natəvan, C.Məmmədquluzadə və C.Cabbarlının heykəllərinin təsvirləri verilmişdir. Əsginazın arxa tərəfində isə Qobustan Dövlət Qoruğunda yerləşən ibtidai insanlara məxsus qayaüstü təsvirləri və həmin ərazidə olan eramızın I əsrinə aid Roma (latın) yazısı verilmişdir. 10 manatlıq əsginazın ölçüsü 134x70мм olmaqla üz tərəfində daş örtüyü fonunda qala divarları içərisində qədim Bakının stilizə olunmuş görünüşü, Şirvanşahlar sarayı və Qız qalası verilmişdir.Əsginazın arxa tərəfində isə Azərbaycan xalçası fonunda respublikanın xəritəsi verilmişdir. 20 manatlıq əsginaz ölçüsü 141x70мм olmaqla üz tərəfində hərbi atributlar şərq ornamentləri ilə bəzədilmiş qılınc, dəbilqə və qalxan verilmişdir; solda ağ boyalarla yalnız Qarabağda bitən Xarı bülbül çiçəyi təsviri edilmişdir. Əsginazın arxa tərəfində milli ornamentlərin fonunda müxtəlif yazılış formalarında “Qarabağ” sözü və respublikanın xəritəsi verilmişdir.

Dövriyyəyə buraxılan 50 manatlıq əsginaz 148x70мм ölçüdə olmaqla üz tərəfində inkişaf və fəth nişanəsi olan pillələr və onlara qalxmağa çalışan şagirdlər təsvir edilmişdir. Burada elmin və təhsilin simvolları öz əksini tapmışdır. 50 manatlıq əsginazın arxasında isə qədim xalça naxışları fonunda respublikanın xəritəsi verilmişdir.

Yeni pul nişanlarının ən böyük nominalı olan 100 manatlıq əsginaz 155x70мм ölçüdə olaraq, üz tərəfdən qədim zamanlardan müasir dövrə qədər memarlığın inkişafı, Azərbaycan iqtisadiyyatının və manatın güclənməsinin simvolik təsviri verilmiş, arxa planda isə yeni manatın loqosu gostərilmişdir.Əsginazın arxa tərəfində milli xalça naxışları fonunda respublikanın xəritəsi verilmişdir.

Dövriyyəyə daxil edilmiş yeni dizaynlı pul nişanlarının 1992-2001-ci illərdə buraxılan pul nişanlarından fərqi literi və nomrəsinin arxa tərəfdə (Azərbaycan Cümhuriyyəti buraxılışlarında olduğu kimi) verilməsi, hər nominalda tətbiq edilən su nişanlarının həmən nominalın mövzusuna uyğunluğudur (1 manat-məşəl, 5manat-kitab və qələm, 10 manat- Qız qalası, 20 manat- orxideya, 50 manat-vintvari pilləkan və 100 manat-yeni manatın loqosu); bütün əsginazların eninin ölçüsünün eyni və arxa tərəfinin vahid dizayna malik olması mühafizə elementlərinin yüksək səviyədə və çox saylı verilməsi kimi göstərmək olar.

Yeni dizayna malik pul nişanlarının ikinci buraxılışı qismən Azərbaycan Milli Bankının adının dəyişdirilməsi ilə əlaqədardır. Belə ki, 2009-cu ilin əvvəlində respublikada Konstitusiyada aparılacaq dəyişikliklər haqqında referendum keçirilmiş, bunun nəticəsi olaraq bir neçə dövlət qurumunun adında dəyişiklik edilmiş, Azərbaycan Milli Bankının adı dəyişdirilərək Mərkəzi Bank adlandırılmışdır. Beləliklə 2010-cu ildən başlayaraq dövriyyəyə üzərində “Mərkəzi Bank” və “2009” tarixi olan 1 manatlıq əsginazlar və 2011-ci ildən üzərində “Mərkəzi Bank” və “2009” tarixi olan 5 manatlıq əsginazlar buraxılmışdır. Bu əsginazlar 2005-ci il tarixli pul nişanları ilə birlikdə dövriyyədə qalmışdır.

Dövriyyədə olan 10, 20, 50 və 100 manatlıq əsginazların “Mərkəzi Bank” yazısı ilə dəyişdirilməsi tədricən həyata keçiriləcəkdir.

1992-2001-ci illərdə Azərbaycan Respublikası Milli Bankının pul nişanları buraxılışı

1992-ci il kağız pul nişanlarının buraxılışı

205. İnv. № 2300. 1 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

206. İnv. № 2301. 10 manat, ilsiz Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

1993-cü il kağız pul nişanlarının buraxılışı

207. İnv. № 2302. 1 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

208. İnv. № 2303. 5 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

209. İnv. № 2304. 10 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

210. İnv. № 2305. 50 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

211. İnv. № 2306. 100 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

212. İnv. № 2307. 1000 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

1994-cü il kağız pul nişanlarının buraxılışı

213. İnv. № 2313. 10000 manat, 1994-cü il. Üz və arxa tərəfi, ölçüsü: 13,0 x 65,0 sm

1995-ci il kağız pul nişanlarının buraxılışı

214. İnv. № 2314. 50000 manat, 1995 il. Üz və arxa tərəfi, ölçüsü: 13,3 x 6,6 sm

1996-cı ilin kağız pullarının təkrar buraxılışı

215. İnv. № 2308. 50 manat, ilsiz, Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

216. İnv. № 2309. 100 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

217. İnv. № 2310. 250 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

218. İnv. № 2311. 500 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

219. İnv. № 2312. 1000 manat, ilsiz. Üz və arxa tərəfi, ölçüsü: 12,5 x 6,3 sm

2001-ci il kağız pul nişanlarının buraxılışı

220. İnv. № 2315.
1000 manat, 2001 il.
Üz və arxa tərəfi,
ölçüsü: 12,6 x 6,4 sm

2005-ci ildə Azərbaycan Respublikası Milli Bankının kağız pul nişanları buraxılışı

221. İnv. № 2292. 1 manat, 2005-ci il, " Nümunə". Üz və arxa tərəfi, ölçüsü: 12,0 x 7,0 sm

222. İnv. № 2292-1.
5 manat, 2005-ci il, "Nümunə".
Üz və arxa tərəfi,
ölçüsü: 12,7 x 7,0 sm

223. İnv. № 2292-2.
10 manat, 2005-ci il,
"Nümunə". Üz və arxa tərəfi,
ölçüsü: 13,4 x 7,0 sm

224. İnv. № 2292-3. 20 manat, 2005-ci il, "Nümunə". Üz və arxa tərəfi, ölçüsü: 14,1 x 7,0 sm

225. İnv. № 2292-4.
50 manat, 2005 il,
"Nümunə". Üz və arxa tərəfi,
ölçüsü: 14,8 x 7,0 sm

226. İnv. № 2292-5.
100 manat, 2005 il,
"Nümunə". Üz və arxa tərəfi,
ölçüsü: 15,5 x 7,0 sm

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. *Əhmədov R.Ə. Azərbaycanda kağız pul dövriyyəsi tarixindən / Azərbaycan Tarixi Muzeyi -2004. Bakı, Elm, 2004, s. 49 – 58.*
2. *Əhmədov R.Ə. Türkiyə "Qırmızı Aypara" Cəmiyyətinin 1918-ci ildə Bakıda dövriyyəyə buraxdığı lotereya biletləri haqqında / Milli Azərbaycan Tarixi Muzeyi – 2008. Bakı: Elm, 2008, s. 246 – 249.*
3. *Qasımova S.A., Əhmədov R. 1918-1923-cü illərdə Azərbaycan pul dövriyyəsində işlədilmiş kağız pullar və qiymətli kağızlar haqqında / Azərbaycan Tarixi Muzeyi – 80. Bakı: Elm, 2001, s. 103 – 109.*
4. *Rəcəbli A.M. Azərbaycan sikkələri. Kitab-albom. Bakı: 2012, s. 316 – 319.*
5. *Vəlixanlı N.M. Azərbaycanda dövlətçilik və onun rəmzləri. Kitab-albom. Bakı: 2000, s. 66-68.*
6. *Yeni manatımızı tanıyın! Yeni pul nişanlarının dizayn mövzusu – müstəqil Azərbaycan Respublikası Milli Bankının Mətbuat Xidməti tərəfindən təqdim edilimişdir. Bakı, 2005.*
7. *Азимов Г.С. Бакинская коммунна. Баку: Гянджлик, 1982. с. 49-57.*
8. *Ахмедов Р.А. О первом выигрышном займе Азербайджанской Республики 1919 г. / Azərbaycan Tarixi Muzeyi - 2005, Bakı, Elm, s. 343 – 348.*
9. *Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1990, с. 19 – 22.*
10. *Большая энциклопедия. Под редакцией Южакова С.Н. Второй том. С.-П.:, Книгоиздательское товарищество Просвещение, с. 459-465.*
11. *Деньги России – 1000 лет. Общ. ред.: д.и.н. А.С.Мельникова. Москва: Родио-Фодио, 2000, с. 250-300.*
12. *Касимова С.А. О фонде «Фалеристики и Глиптики» НМИА / Milli Azərbaycan Tarixi Muzeyi-2010, Bakı: Elm, s. 245-255.*
13. *Каталог бон и дензнаков России, РСФСР, СССР, окраин и образований (1769-1927). Под редакцией Чучина Ф.Г. Издание 3-е. Москва: Издание Советской Филателистической ассоциации, 1927, с. 53 – 58.*
14. *Каталог денежных знаков России и Балтийских стран 1769-1960. Н.Кардакофф-Берлин, 1953, с. 157.*
15. *Новый энциклопедический словарь. Под редакцией Арсеньева К.К. Четвертый том. Брокгауз Ф.А. и Ефрон И.А., С.-П.: 1912, с. 795 – 796.*
16. *Раджабли А.М. Денежное хозяйство азербайджанских республик / Международный азербайджанский журнал "İRS", №4 (40), с. 4 – 9.*
17. *Рзаев И., Ахмедов Р. Денежные знаки Азербайджана (1918-1924) Первый научно-популярный журнал «Yol», №2 (11), 2008, с. 40 – 46.*
18. *Рзаев И. Частные боны Азербайджана / Петербургский коллекционер № 5 (45), 2007, стр 7 – 9.*
19. *Рябченко П.Ф. Полный каталог бумажных денежных знаков и бон России, СССР, стран СНГ (1769-1994). Издание 2-е, переработанное и дополненное. Киев: Издательско-культурологический центр София, Лисбанк, 1995, с. 522-538.*
20. *Топчибашев Али Марданбек. Письма из Парижа. Баку: Азербайджанское государственное издательство, 1988, с. 3 – 4.*
21. *Финансовая энциклопедия. Под редакцией Блинова И.А. и Буковецкого А.И. Москва: Государственное издательство, с. 923.*
22. *Kataloq der Geldscheine von Ruslan und der Baltischen Staaten 1769-1950.*
23. *Standart kataloq of World Paper money by Neil Shofer and Colin R.Bruce II, 9th Edition. Vol. two, Ceneral issues. 1368-1960. Krause publications Inc., lola, Wi., 2000, p. 109-110.*